QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 232 (5952) **14 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Bu, bir daha göstərir ki, nə qədər düzgün qərar qəbul etmişik"

*Prezident İlham Əliyev Bakı gəmiqayırma zavodunda inşa olunmuş ilk tankerin istismara verilməsi və "Azərbaycan" adlı gəmi-bərənin suya salınması mərasimində iştirak edib*




Səh 2

5

Prezident Vladimir Zelenski GUAM-ın üzvü olan ölkələrin nümayəndələri ilə görüşüb



5

Bəhruz Quliyev: "Radikal qrupların boykot qərarı zəifliklərinin etirafıdır"



9

Ermənistan hərc-mərclik və xaos burulğanında



# İlham Əliyev: "Bu, bir daha göstərir ki, nə qədər düzgün qərar qəbul etmişik"

## Prezident İlham Əliyev Bakı gəmiqayırma zavodunda inşa olunmuş ilk tankerin istismara verilməsi və "Azərbaycan" adlı gəmi-bərənin suya salınması mərasimində iştirak edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan ilk neft tankerinin istismara verilməsi və "Azərbaycan" adlı gəmi-bərənin suya salınması mərasimində iştirak edib.***



AZƏRTAC xəbər verir ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına tanker barədə məlumat verdi. Bildirildi ki, özünəməxsusluğu ilə seçilən "Laçın" adlı ilk neft tankeri Odessa Dəniz Mühəndisliyi Bürosunun layihəsi əsasında yerli mütəxəssislər tərəfindən inşa edilib.

Rauf Vəliyev: Ümumiyyətlə, Azərbaycan tarixində bu, bir ilkdir. Buna böyük ehtiyac var idi. Özü də Azərbaycanda sıfırdan inşa olunub.



Prezident İlham Əliyev: Bu, bir daha göstərir ki, nə qədər düzgün qərar qəbul etmişik. Gəmiqayırma zavodunun tikintisi doğrudan da böyük hadisədir. İndi bizə lazım olan bütün gəmilər Azərbaycanda istehsal edilə bilər. Tarixdə ilk dəfə, həm tanker, həm də ki, gəmibərə tikilib.

Rauf Vəliyev: Cənab Prezident, tankerin uzunluğu 141 metr, eni 16,9 metrdir. Gəminin ağırlığı 7875 tondur.

Prezident İlham Əliyev: Bu layihə burada işlənilib?

Rauf Vəliyev: Bəli, Volqa-Don MAX layihəsidir. Volqa-Don çayından keçmək imkanı olan və maksimum yükgötürmə qabiliyyətinə malik tankerdir. Başqalarından fərqli olaraq, 4-5 min tondan artıq yüklə ölçülərinə görə bu kanaldan keçmək imkanına malikdir.

Prezident İlham Əliyev: Volqa-Dondan adətən daha kiçik gəmilər keçir. Bu da keçə bilir?

Rauf Vəliyev: Bəli, maksimum 5600 ton yüklə oradan keçmək imkanına malikdir.

Prezident İlham Əliyev: Çox yaxşı, bu tankerlərdən bizdə neçəsi inşa edilib?

Rauf Vəliyev: Ümumiyyətlə, bizdə 20 tanker var. Sizin dəstəyinizlə hazırda dördü sifariş olunub və inşa edilir.

Prezident İlham Əliyev: Zavod da işləyir. İş yerləri açılıb. İndi zavodu sifarişlərlə biz özümüz təmin edirik və gəmilərin tikintisinin maliyyə yükünün əsas hissəsini Xəzər Dəniz Gəmiçiliyi öz üzərinə götürüb. Elədirmi?

Rauf Vəliyev: Bəli, 30 faizi dövlət tərəfindən təmin olunur.

Prezident İlham Əliyev: 30 faiz dövlət, 70 Gəmiçilik. Bu da onu göstərir ki, Gəmiçilik indi gəlirlə işləyir və əldə edilmiş gəlir kənara getmir, Azərbaycanda qalır. Azərbaycanda tankerlər, bərələr inşa edilir. Yəni, pul qalır ölkəmizdə. Vaxt var idi ki, Xəzər Dəniz Gəmiçiliyi dövlətdən dotasiya alırdı. Vergi şəklində cəmi 1 milyon manat ödəyirdi. Amma sonra tədbirlər görüldü, o cümlədən kadr islahatları aparıldı. İndi Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi gözəl standartlara çatıbdır və beynəlxalq şirkət kimi fəaliyyət göstərir.

Rauf Vəliyev: Çox sağ olun, cənab Prezident, Sizin dəstəyinizlə.

Prezident İlham Əliyev: Biz indi Xəzərdə ən böyük donanmaya malikik, 200-dən çox gəmimiz var və indi yeni gəmilər də istismara verilir. Gəmilərin sayı artacaq.

Qeyd edək ki, "Laçın" tankeri nəinki Xəzərdə neft və neft məhsullarının daşınmasını, həmçinin Volqa-Don və Volqa-Baltik kanalları ilə Xəzərdən kənar hövzələrə də maye yüklərin daşınmasını təmin edəcək. Yeni nəsil tankerin inşası Azərbaycanın iqtisadi və sənaye potensialının gücləndirilməsində mühüm rol oynayan Bakı gəmiqayırma zavodunun növbəti uğurudur. Hazırda zavodda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin donanması üçün zəruri olan müxtəlif təyinatlı gəmilərin inşası ilə bağlı danışıqlar aparılır. Onların arasında quru yük, konteyner daşıyan, kran, yanğınsöndürən, yedək-təchizat, təchizat və nəqliyyat gəmiləri vardır.

Ardı Səh. 3



# İlham Əliyev: “Bu, bir daha göstərir ki, nə qədər düzgün qərar qəbul etmişik”

*Prezident İlham Əliyev Bakı gəmiqayırma zavodunda inşa olunmuş ilk tankerin istismara verilməsi və “Azərbaycan” adlı gəmi-bərənin suya salınması mərasimində iştirak edib*








Əvvəli-Səh-2

Prezident İlham Əliyev “Laçın” tankerinin istismara verilməsini bildirən düyməni basdı.

Prezident İlham Əliyev: Zavodu Azərbaycan özü sifarişlərlə təmin edəcək. Ancaq çalışın, qonşu ölkələrə də bu xidmətləri göstərə bilək ki, daha çox pul qazanaq.

Rauf Vəliyev: İlk gəminin də adını Siz qoydunuz, “Azərbaycan”.

Prezident İlham Əliyev: Bəli, adı da “Azərbaycan” olmalıdır. Bu layihə harada hazırlanıb?

Rauf Vəliyev: Bu layihəni də Odessa Dəniz Mühəndisliyi Bürosu hazırlayıb. Bizim müəssisə onunla birgə işləyir. Bu, Xəzərdə ən çox avtomobil və TIR götürən gəmi olacaq.

Prezident İlham Əliyev: Bizdə olan bərələrdən daha böyükdür?

Rauf Vəliyev: Bu, 56 vaqon götürür, 50-də TIR götürəcək. Bunu çoxfunksiyalı etmişik. Yəni, vaqon və TIR-dan başqa, həm də 100 sərnişin.

Sonra Prezident İlham Əliyev Bakı gəmiqayırma zavodunda inşa olunan ilk sərnişin, avtomobil və dəmir yolu vaqonları daşıyan “Ro-Pax” tipli “Azərbaycan” adlı gəmi-bərənin suya salınması mərasimində iştirak etdi. Məlumat verildi ki, gəmi-bərənin gövdə hissəsinin inşası 100 faiz başa çatıb. Qalan tikinti və quraşdırma işləri gəmiqayırma zavodunun yanalma körpüsündə davam etdiriləcək. Nadir dizayna malik “Ro-Pax” tipli gəmi-bərə yüksək texniki göstəricilərinə görə fərqlənir.

Prezident İlham Əliyev “Azərbaycan” gəmi-bərəsinin suya salınmasını bildirən düyəni basdı.

Hazırda Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Xəzər dənizində yeganə bərə operatorudur. Qurumun bərələri Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm həlqəsi olmaqla, Xəzərin Şərq və Qərb sahillərindəki dəmir yollarını dəniz üzərində birləşdirir, Azərbaycan ərazisindən tranzit yüklərin daşınmasına, ölkənin əlverişli coğrafi mövqeyi və tranzit potensialının reallaşdırılmasına xidmət edir.

Prezident İlham Əliyev Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi və onun alyans tərəfdaşı olan “Caspian Marine Services” tərəfindən alınan 5 platforma-təchizat gəmisinin istifadəyə verilməsi mərasimində də iştirak etdi.

Məlumat verildi ki, “Xocalı”, “Quba”, “Murovdağ”, “Savalan” və “Şahdağ” adlarını daşıyan müasir platforma-təchizat gəmiləri İtaliyanın bu sahədə aparıcı gəmiqayırma zavodunda inşa edilib. Əsas təyinatı neft-qaz platformalarının təchizatı olsa da, bu gəmilər seysmik və tədqiqat işləri, sualtı əməliyyatlara dəstək, dəniz səthinin neft və neft məhsullarından təmizlənməsi kimi əməliyyatları da həyata keçirir.

Rauf Vəliyev: Cənab Prezident, son 20 ildə öz tərəfdaşlarımızla bu tip 10 gəmi gətirmişik. Amma onların hamısı bunun bir az kiçik formasıdır.

Prezident İlham Əliyev: Bu 5 gəmi bizə kifayətdir?

Rauf Vəliyev: Hələ ki, bu günə kifayətdir. Adətən bu tip gəmilər öncədən uzunmüddətli kontraktlarla gətirilir. Sadəcə, biz gələcək tələbatı və yaranmış vəziyyəti nəzərə alaraq gətirdik və bu gün alınan gəmilərin hamısı artıq kontraktdadır. Bunun 5-ni bu il gətirmişik, 4-nü isə keçən il. İkisini isə ondan əvvəl. İki ilə gətirdiyimiz bu 11 gəminin hamısı kontraktdadır.

Prezident İlham Əliyev: Boş dayanan gəmi yoxdur?

Rauf Vəliyev: Xeyr, yoxdur.

Prezident İlham Əliyev “Xocalı”, “Quba”, “Murovdağ”, “Savalan” və “Şahdağ” platforma-təchizat gəmilərinin istifadəyə verilməsini bildirən düyməni basdı.

Rauf Vəliyev: Bayaq Sizə məruzə etdiyim kimi, bu gəmilərdən təchizatla yanaşı, həm də yanğından mühafizə işlərində istifadə olunur. “Xocalı” və “Quba” gəmiləri Xəzərdə bu tipli gəmilərin ən böyükləridir.

Prezident İlham Əliyev: Bunlar digər gəmilərdən fərqlənir?

Rauf Vəliyev: Bəli, bu gəmilər həcmcə daha böyükdür. Şükürlər olsun, gəmilərin 5-i də gəldi, 5-i də kontraktdadır.

Prezident İlham Əliyev: Çox yaxşı. Heyət də formalaşıb?

Rauf Vəliyev: Bəli, heyət də 100 faiz azərbaycanlılardan formalaşıb. Ən önəmlisi odur ki, adətən neft-qaz layihələrini yerinə yetirmək üçün operator olan xarici şirkətlərlə uzunmüddətli kontraktlar bağlanırdı. Bu gəmilər bəzən 1 il müddətinə sifariş olunurdu, lakin altı aydan sonra növbəti kontrakt imzalamaq lazım gəlirdi, beləliklə, qalan 6 ayın pulu xarici şirkətlərə ödənilirdi. Bizim isə Dövlət Neft Şirkəti, BP, Total ilə danışıqlarımız belə oldu ki, onlar bizə öz proqnozlarını verirlər. Biz çalışırıq ki, verilən proqnoz əsasında burada gələcək layihələr üçün tələb oluna biləcək sayda gəmi saxlayaq. Onlar yalnız lazım olan dövrün pulunu ödəyirlər.

Prezident İlham Əliyev: Çox yaxşı, əlbəttə, bu, daha məntiqlidir.

Rauf Vəliyev: Bəli, çox sağ olun.

Qeyd edək ki, sərt hava şəraitində dənizdəki platformalara yan almadan yükləmə-boşaltma əməliyyatını təhlükəsiz şəraitdə yerinə yetirməyə imkan verən DP-2 sisteminə, eləcə də dəniz obyektlərində yanğın zamanı hadisəyə ilkin müdaxilə etməyə şərait yaradan FiFi-1 təsnifat dərəcəsinə malik bu yeni gəmilər Xəzərdə neft-qaz hasilatı sahəsində fəaliyyət göstərən şirkətlərə xidmət göstərəcək.

Bu gün istismara verilən gəmilər Xəzərdə aparıcı mövqeyimizin qorunub saxlanılmasında, xarici sularda fəaliyyətin genişləndirilməsi ilə bir bazardan asılılığın aradan qaldırılmasında, Azərbaycan ərazisindən artan tranzit yüklərin daşınmasında, dənizdə neft-qaz layihələrinin uğurla icrasında mühüm əhəmiyyət kəsb edir. Həmçinin Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanmasında gəmilərin sayının artması dənizçilər üçün yeni iş yerlərinin açılması baxımından da önəmlidir. Sonda xatirə şəkli çəkdirildi.

# "Bu il Rusiya-Azərbaycan münasibətləri üçün çox uğurlu olub"

## *Prezident İlham Əliyev Rusiyanın Həştərxan vilayətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*





### *Rəsmi xronika*

Prezident İlham Əliyev 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən Azərbaycan Respublikasının ərazisində və ölkəmizin hüdudlarından kənarda 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anma mərasimləri keçiriləcək. Sərəncamda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planını hazırlamaq və onun həyata keçirilməsini təmin etmək tapşırılıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan təbii qazının dünya bazarına Cənub Qaz Dəhlizi vasitəsilə nəqli ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 oktyabr tarixli 15 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Xaçmaz rayonunun Xaçmaz-Niyazoba-Əbilyataq-Qarğalıq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev qeyd edib ki, Həştərxan ilə Bakını uzun qarşılıqlı fəaliyyət, tərəfdaşlıq və əməkdaşlıq tarixi bağlayır:***

-Xoş gəlmisiniz, sizi görməyimə şadam.

Çox şadam ki, siz Həştərxan vilayətinin rəhbəri təyin ediləndən az sonra Azərbaycana gəlmisiniz. Bu, çox yaxşı əlamətdir, bizim tərəfdaşlığımızın, dostluğumuzun əlamətidir. Həştərxan ilə Bakını uzun qarşılıqlı fəaliyyət, tərəfdaşlıq və əməkdaşlıq tarixi bağlayır. Biz Xəzərin sahilində yerləşirik, ona görə də münasibətlərimizin tarixi keçmiş əsrlərin dərinliklərinə gedir. Mən də Həştərxana səfərim zamanı bu şəhərlə tanış olmaq imkanı əldə etdim. O cümlədən mənə əməkdaşlığımızın tarixi barədə məlumat verildi. Bu əməkdaşlıq həqiqətən həmişə çox müsbət olub. Bu gün də biz çox fəal qarşılıqlı fəaliyyət göstəririk. Rusiya regionları arasında Həştərxan vilayəti ilə Azərbaycanın xüsusi münasibətləri var. Bu, bir daha bizim tariximizə və son vaxtlar çoxlu müştərək layihələrimizə əsaslanır.

Bildiyiniz kimi, Həştərxanda Azərbaycan İşgüzar Mərkəzi yaradılıb, keçən il həmin mərkəzin açılışı olub. Mənə verilən məlumata görə, Bakıda Həştərxan İşgüzar Mərkəzi də açılış üçün hazırdır və onun tikintisi demək olar ki, başa çatdırılıb. Bu, çox mühüm hadisədir, çünki biz bu işgüzar mərkəzlər vasitəsilə qarşılıqlı ticarəti inkişaf etdirəcəyik. Bu gün mən cari ilin 9 ayının məlumatlarına baxmışam. Bizdə əmtəə dövriyyəsi artımının o qədər də çox olmaması müşahidə edilir, amma hər halda burada da müsbət dinamika var.

Həştərxan ilə Bakını bağlayan amillər çoxdur. Əlbəttə, gələcəkdə birgə fəaliyyətimizi elə planlaşdırmalıyıq ki, qarşılıqlı əlaqələrimiz daha sıx olsun. Biz artıq birbaşa aviasiya əlaqəsinə malikik. Bu da çox müsbət məqamdır. Hesab edirik ki, həm bizim turistlər, həm də Həştərxandan olan turistlər daha çox qarşılıqlı səfərlər edəcəklər. Ümumiyyətlə, Azərbaycana gələn rusiyalı turistlərin sayı artır. Fikrimcə, bu il həmin rəqəm bir milyon nəfərə yaxın olacaq. Beləliklə, bu da əməkdaşlığın, dostluğun yaxşı göstəricisidir və bizim vətəndaşlarımız bir-birinə baş çəkəndə özlərini rahat hiss edirlər.

Bütövlükdə bu il Rusiya-Azərbaycan münasibətləri üçün çox uğurlu olub. Yüksək səviyyədə, nazirlər, qanunverici hakimiyyətin rəhbərləri səviyyəsində əlaqələr, biznes forumlar xeyli çox olub. Bu yaxınlarda Moskvada regional forum keçirilib. Buna görə biz ili siyasi sahədə yaxşı nəticələrlə, əmtəə dövriyyəsinin xeyli artması ilə başa vururuq və gələn ilə böyük nikbinliklə baxırıq. Çünki əminəm ki, Rusiya-Azərbaycan münasibətləri ölkələrimizin, xalqlarımızın rifahı naminə durmadan inkişaf edəcək və biz, əlbəttə, öz tərəfdaşlarımızla ənənəvi əlaqələri möhkəmləndirəcəyik. Bir daha xoş gəlmisiniz. Bakıda vaxtınızın xoş keçməsini arzu edirəm.

x x x

Rusiyanın Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin:

-Çox sağ olun, hörmətli İlham Heydər oğlu. İcazə verin, ilk növbədə, Sizə dərin ehtiramımı və şəxsən görüşmək imkanına görə təşəkkürümü bildirim. Həqiqətən Azərbaycan Respublikası Həştərxan vilayəti üçün Xəzəryanı regionda əsas tərəfdaşlardan biridir. Uzun müddət ərzində əmtəə dövriyyəsi, turizm sahəsində bu cür sıx münasibətlər, işgüzar əlaqələr yaranıb. Müasir mərhələdə bizim iqtisadi əlaqələrimizin flaqmanı, heç şübhəsiz, xarici ticarət dövriyyəsidir. Siz dediyiniz kimi, 10 ay ərzində xarici ticarətin həcmi kifayət qədər böyükdür və faiz nisbətində artım müşahidə edirik.

Biz ticari əlaqələrimizin genişlənməsi perspektivini keçən il Həştərxanda açılmış Azərbaycan İşgüzar Mərkəzinin işi ilə bağlayırıq. Dünən biz Həştərxan İşgüzar Mərkəzinin tikintisinin gedişi ilə tanış olmaq imkanı əldə etdik. Demək istəyirəm ki, işin gedişindən çox razıyıq və hesab edirik ki, iyunun əvvəlində biz bu mərkəzi təntənəli şəkildə açıa biləcəyik. Siz dediyiniz kimi, Həştərxanda və Bakıda bu cür mərkəzlər həqiqətən bizim ticari və mədəni əlaqələrimizin inkişafı üçün yaxşı vasitə olacaq. Fikrimizcə, nəqliyyat sahəsində uğurlu əməkdaşlığı nümunə göstərmək olar.

# Prezident Vladimir Zelenski GUAM-ın üzvü olan ölkələrin nümayəndələri ilə görüşüb

***Ukrayna Prezidenti Vladimir Zelenski 2019-cu ildə Demokratiya və İnkişaf uğrunda Təşkilatda - GUAM-da Ukraynanın sədrliyinin başa çatması ilə əlaqədar Gürcüstanın Baş Naziri Georgi Qaxariya, Moldova Respublikasının Baş Naziri İon Kiku və Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov ilə görüşüb.***



AZƏRTAC Ukrayna Prezidenti ofisinin mətbuat xidmətinə istinadla xəbər verir ki, Prezident Vladimir Zelenski Ukrayna, Azərbaycan, Gürcüstan və Moldovanın GUAM çərçivəsində əməkdaşlığının fəallaşmasını və hər il hökumət başçıları səviyyəsində iclas keçirilməsini alqışlayıb. Vladimir Zelenski görüşdə çıxış edərək deyib: “Ukrayna, Azərbaycan, Gürcüstan və Moldova həm ortaq tarixlə, həm də gələcəyimizin inkişafına ümumi baxışla bağlıdır. Bizi regionda təhlükəsizlik və sabitlik, iqtisadi yüksəliş, investisiyaların artırılması, infrastrukturun inkişafı və vətəndaşlarımız arasında mədəni mübadilə səyləri birləşdirir”.

Ukrayna Prezidenti qeyd edib ki, çoxtərəfli dialoqun böyük potensialı var. Görüş iştirakçıları Ukrayna, Azərbaycan, Gürcüstan və Moldovanın suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq miqyasda tanınmış sərhədlərinin toxunulmazlığının qarşılıqlı dəstəklənməsi siyasətinin dəyişməzliyini təsdiq ediblər.

Tərəflər bir sıra müştərək iqtisadi və infrastruktur layihələrini də müzakirə ediblər. Perspektivli, o cümlədən multimodal daşımaların həyata keçirilməsi üçün nəqliyyat marşrutları yaradılmasının vacibliyi vurğulanıb. Prezident Vladimir Zelenski GUAM-ın üzvü olan ölkələrin vətəndaşları tərəfindən sərhədlərin keçilməsi prosedurlarının, o cümlədən ID-kartları formatında daxili pasportlardan istifadə olunmaqla sadələşdirilməsi prosesinin davam etdirilməsi təklifini də irəli sürüb. GUAM iştirakçıları Təşkilatın potensialının artırılması, qurumun populyarlaşdırılması və daxili kommunikasiyasının yaxşılaşdırılması üçün konkret addımlar atılmasının zəruriliyi barədə razılığa gəliblər.

# Bəhruz Quliyev: “Radikal qrupların boykot qərarı zəifliklərinin etirafıdır”

***“Bir qrup radikal və dağıdıcılıq təfəkkürünə malik müxalifətçinin parlament seçkilərinə qatılmamaq qərarları kökündən yanlış və düzgün olmayan bir qərardır”. Bu fikirləri “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzu ilə bağlı Olaylar.az-a açıqlamasında deyib.***



Onun sözlərinə görə, onlar həqiqətən də özlərini siyasətçi sayırlarsa, siyasi partiya “lideri” hesab edirlərsə, siyasətdə uğur əldə etmək istəyirlərsə, xüsusilə xalq və dövlətçilik marağından çıxış etdiklərini iddia edirlərsə, seçkilər vasitəsi ilə öz mövqelərini ortaya qoymalıdırlar: “Yox, əgər bunu etməyə cürətləri çatmırsa, deməli, nə xalqçılıq, nə dövlətçilik, nə də ümummilli maraqlar onları qətiyyən düşündürmür. Onları düşündürən yenə də şəxsi dividend və hər hansı xarici dairələrin sifarişlərinə uyğun hərəkət etməkdir.

Digər tərəfdən, bu qruplar bütün seçkilərdə və referendumlarda iştirak etməlidirlər ki, öz siyasi maraqlarını ictimailəşdirsinlər. Bu gün siyasi yetkin olan şəxslərin hər biri dərk edir ki, parlament eyni zamanda siyasi mübarizə platformasının tərkib hissəsidir və orada müxtəlif siyasi baxışları olan tərəflər də təmsil olunur. Əgər dağıdıcı qruplar qrant silmək, həmin yolla gündəmdə qalmaq arzusunu üstün tuturlarsa. Bu faktın özü də açıq-aydın şəkildə onların gücsüzlüklərini isbat edir. Yəni təəssüflə qeyd etməliyik ki, onları heç siyasi maraqlarının da nədən ibarət olduğu bəlli deyil. Bayaq da dediyim kimi, ortada yalnız şəxsi maraqlar dayanır və bu maraqlar nə dövlətin, nə də xalqın maraqlarına heç bir cavab vermir. Radikal qrupların boykot qərarı onların zəifliklərinin etirafıdır”.

“Daha bir reallıq budur ki, onlar həm də elektoratsızlıqdan, sosial bazasızlıqdan ciddi şəkildə çəkinirlər”, deyən Bəhruz Quliyev hesab edir ki, məhz bu amil də radikal, dağıdıcı qrupların seçkilərə qatılmaq cürətsizliklərini ortaya qoyur: “Ona görə də, necə deyərlər özlərini sudan quru çıxarmaq üçün boykot kimi qərarlar verib, həmin vasitə ilə siyasi rüsvayçılıqlarını gizlətməyə cəhdlər göstərirlər. Lakin sağlam düşüncəli cəmiyyət də görür ki, kimkimdir və əlbəttə ki, radikal qrupların bu kimi qərarlarını qeyri-ciddilik kimi qəbul edir”.

# “Azərbaycanda dəmir yolu taksisi fəaliyyət göstərəcək”



“Azərbaycan dəmir yolunda yeni sərnişin daşıma taksisi xidmət göstərəcək”. SİA-nın verdiyi məlumata görə, bunu jurnalistlərə açıqlamasında Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib. Onun sözlərinə görə, bu xidmətin pilot olaraq 2020-ci ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulur: “Bildiyiniz kimi, dəmiryolu şəbəkəsində sərnişin və yükdaşıma müəyyən interval əsasında həyata keçirilir. İntervalda olan sərbəst vaxtda insanlar pilotsuz dəmir yolu taksisi sifariş etməklə misal olaraq Şəkiyə və əks tərəfə hərəkət edə bilərlər. Belə bir layihə Yaponiyada tətbiq olunur. Azərbaycanda dəmir yolundan səmərəli istifadə etmək həm Azərbaycan vətəndaşları, həm də turistlər üçün sərnişin daşıma xidmətini yaratmağa hədəflənib”,- deyə Ü. Mehdiyev qeyd edib. Agentlik sədri, həmçinin əlavə edib ki, layihənin ciddi təhlükəsizlik konsepti hazırlanır və bütün sınaqlar aparıldıqdan sonra 2020-ci ilin sonlarına ilk prototip hazırlanacaq və pilot olaraq istifadəyə verilməsi nəzərdə tutulur.

## “Milliyet” qəzeti: Heydər Əliyevin müəyyənləşdirdiyi neft strategiyası böyük bir coğrafiyada inkişafı təmin edib

Türkiyən çoxtirajlı “Milliyet” qəzeti ümummilli lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar məqalə yayıb. AZƏRTAC xəbər verir ki, “Heydər Əliyevin uzaqgörənliyi” sərlövhəli məqalənin müəllifi Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suverdir.

Məqalədə ulu öndər Heydər Əliyev şəxsiyyətinin ucalığı tərənnüm olunub. Müəllif mühakimə yürüdür ki, liderlərin əbədiyaşarlığını onun əməlləri, tarixi fəaliyyətlərinin əhəmiyyəti təmin edir. Heydər Əliyev məhz uzaqgörənliyi, ölkəsi və xalqı qarşısında misilsiz xidmətləri sayəsində insanların qəlbində yer qazanıb. Bütün bunlar tarixi faktlar və məntiqi mülahizələrlə türkdilli oxuculara çatdırılır. Məqalədə, həmçinin ulu öndər Heydər Əliyevin uzaqgörən neft strategiyası və onun sayəsində meydana çıxan digər beynəlxalq iqtisadi layihələrdən müfəssəl bəhs olunur. Diqqətə çatdırılıb ki, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi uzaqgörən neft strategiyası böyük bir coğrafiyada iqtisadi inkişafı təmin edib. Hazırda uğurla fəaliyyət göstərən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi Ərzurum qaz xətləri, Bakı-Tbilisi-Qars dəmir yolu, Xəzər dənizini Avropaya birləşdirən TANAP və TAP, PEKİM və s. Ümummilli Liderimizin müəyyən etdiyi strategiyanın uğurlu nəticələridir.

## Azərbaycanın və Türkiyənin Ombudsman institutları arasında əməkdaşlıq əlaqələri müzakirə olunub



Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Səbinə Əliyeva Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral ilə görüşüb.

Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, görüşdə ombudsman Azərbaycan ilə Türkiyə arasında münasibətlərin dostluq və qardaşlığa əsaslandığını deyib. O bildirib ki, ölkələrimiz arasında ən yüksək səviyyədə olan strateji tərəfdaşlıq münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Ombudsman Azərbaycan ilə Türkiyənin beynəlxalq miqyasda daim bir-birini dəstəklədiyini qeyd edib.

Ombudsman Azərbaycan ərazisinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu, bu təcavüz nəticəsində bir milyondan çox qaçqın və məcburi köçkün soydaşımızın hüquqlarının kütləvi şəkildə pozulduğunu diqqətə çatdırıb. Səbinə Əliyeva Azərbaycanın haqq işinin dəstəklənməsində qardaş ölkənin göstərdiyi xüsusi dəstəyin təqdirəlayiq olduğunu deyib.

Görüşdə, həmçinin Ombudsman təsisatının çoxşaxəli fəaliyyəti haqqında məlumat verilib. Təsisatın Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarının, Asiya Ombudsmanlar Assosiasiyasının, İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının üzvü olduğu, habelə Türkdilli ölkələrin Ombudsmanları Şəbəkəsinin yaradılması istiqamətində işlərin həyata keçirildiyi diqqətə çatdırılıb. Səbinə Əliyeva qardaş ölkə ilə insan hüquqları sahəsində əlaqələrin daha da gücləndirilməsinin, bu baxımdan hər iki ölkənin Ombudsman təsisatları arasında əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Səfir Erkan Özoral Azərbaycanda Ombudsman təsisatının fəaliyyətinin yüksək qiymətləndirdiyini deyib. İki ölkə arasında münasibətlərin nümunəvi xarakter daşıdığını deyən E.Özoral Dağlıq Qarabağ münaqişəsinin həlli - Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsində Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu vurğulayıb. E.Özoral Azərbaycan və Türkiyənin Ombudsman institutları arasında sıx əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin və təsisatların beynəlxalq səviyyədə fəaliyyətlərinin əlaqələndirilməsinin vacibliyindən danışıb.

# Verilən vədlər yerinə yetirilir

## Prezident İlham Əliyev: "Biz xalq üçün yaşayırıq, dövlət xalqı qorumalıdır"

***Prezident İlham Əliyevin rəhbərliyi ilə 2004-cü ildən uğurla həyata keçirilən regional inkişaf proqramları nəticəsində, ölkə iqtisadiyyatı 3 dəfədən çox artıb. Ötən 16 il ərzində, yeni-yeni istehsal müəssisələri, 2 milyona yaxın iş yeri yaradılıb ki, onlardan 1,4 milyonu daimi iş yeridir. 2004-2018-ci illər ərzində, iqtisadi islahatlar baxımından, Azərbaycan qədər sürətli inkişaf yolu ilə gedən ikinci ölkə olmayıb. Azərbaycandakı işsizlik səviyyəsi dünyada ən aşağı səviyyəyə - cəmi 5 faizə enib. Halbuki 2003-cü ildə bu göstərici 49 faizə bərabər olub. Əgər 2004-cü ildə yoxsulluğun səviyyəsi 40 faizdən artıq idisə, hazırda bu, cəmi 5,4 faizdir. Ötən 16 il ərzində maaşlar beş dəfə, pensiyalar səkkiz dəfə artıb.***



Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən etibarən uğurla həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramları ölkəmizin simasını tanınmaz dərəcədə dəyişib, qeyri-neft sektorunun ilbəil tərəqqisinə səbəb olub. Ən mühüm məsələ isə, Prezident İlham Əliyevin, mütəmadi olaraq, bölgələrə səfər etməsi və səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir. Həmçinin, xüsusi olaraq, vurğulamaq lazımdır ki, son illər ərzində, ölkəmizin sosial-iqtisadi inkişaf istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi vədi yerinə yetirən və Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan ölkə başçısı İlham Əliyevin, müntəzəm olaraq, regionlara səfərləri zamanı insanlarla həmişə təmasda olması, sıravi adamlarla, ziyalılarla, gənclərlə görüşləri Ona öz işini səmərəli qurmaqda, nöqsanları aradan qaldırmaqda, qarşıya yeni vəzifələr qoyub həyata keçirməkdə imkanlar yaradır və hakimiyyətlə xalqın birliyini möhkəmləndirir.

### Dövlət başçısının regionlara hər səfəri xalqa xidmətin təzahürüdür

Prezident İlham Əliyevin Azərbaycanın şəhər və rayonlarına hər bir səfəri insanların qayğı və problemlərinə həssas münasibətin nümayişinə çevrilir. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin, nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Ötən illər ərzində, ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən dövlətimizin başçısı İlham Əliyev hər bir addımda vətəndaşların mənafeyi əsas amil hesab edir.

Bu günlərdə regionlara növbəti səfərləri çərçivəsində Prezident İlham Əliyevin Şamaxı rayonunda olub və bu bölgəyə səfəri bir sıra sosial və iqtisadi təyinatlı obyektlərin açılışı ilə əlamətdar olub.

Dövlət başçısı Prezident Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 101-117-ci kilometrlik hissəsinin açılışında iştirak edib.

### “"ASAN xidmət" cəmiyyətimizin ictimai şüurunda da inqilabi dəyişikliklərə səbəb olubdur"

"ASAN Həyat" kompleksinin açılışında iştirak edən Prezident İlham Əliyev bildirib ki, bu gözəl təşəbbüs xarici ölkələrdə də rəğbətlə qarşılanır: "Şadam ki, mənim təşəbbüsümlə yaradılmış bu xidmət bu gün, nəinki ölkəmizdə, hətta xarici ölkələrdə də böyük rəğbətlə qarşılanır. Şadam ki, "ASAN xidmət"in vətəndaşlar tərəfindən bəyənilmə əmsalı 99,4 faizdir. Yəni bu, onu göstərir ki, xidmət, doğrudan da, böyük nailiyyətdir, ictimai xidmətlər sahəsində böyük dəyişikliklərə gətirib çıxarıb. Eyni zamanda, "ASAN xidmət" cəmiyyətimizin ictimai şüurunda da inqilabi dəyişikliklərə səbəb olubdur. Çünki ictimai xidmətlər sektoru həmişə çox problemli sektor idi və vətəndaşlar çox əziyyət çəkirdilər. Bürokratiya, süründürməçilik, korrupsiya, rüşvətxorluq xidmət sektorunun əsas problemləri idi. "ASAN xidmət"in fəaliyyətə başlamasından sonra artıq bu sahədə tam şəffaflıq təmin edilibdir".

Dövlət başçısı onu da vurğulayıb ki, sayca 16-cı mərkəz olduğunu bildirərək vurğulayıb ki, "ASAN" bizim intellektual məhsulumuzdur: "Mən çox şadam ki, Azərbaycan intellektual məhsul icad edir və bunu ixrac edir. İntellektual məhsulun, xidmətlərin ixracı hesab edirəm ki, bizim gələcək fəaliyyətimizdə çox böyük diqqətə layiq olmalıdır".

Dövlət başçısı "ASAN xidmət"in apardığımız siyasətin göstəricisi olduğunu bildirib: "Bu mərkəzlərdə işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Bu, həm gənclərimizin istedadını, biliklərini göstərir və həm də kadr hazırlığı üçün də çox önəmlidir. Çünki artıq minlərlə ASAN könüllü müxtəlif önəmli vəzifələrdə çalışır. "ASAN xidmət"lərdə təlim keçmiş, yaxud da ki, işləmiş gənclərimiz artıq həyata da vəsiqə alırlar, bilikli kadrlar kimi onlara inam artır və onları işə götürənlər əmin olurlar ki, dürüstlük, keyfiyyət, biliklər və mədəni xidmət olacaq".

### "Könüllülər qarşısında bütün imkanlar açıqdır"

Dövlət başçısı, həmçinin, könüllülərin hərəkatının Azərbaycanda geniş vüsət aldığını da vurğulayıb: "Çox şadam ki, Azərbaycanda könüllü hərəkatı geniş vüsət alır. Bu, doğrudan da, onu göstərir ki, siyasətimiz həyatda öz əksini tapır. Bir daha təkrar etmək istəyirəm ki, könüllülər hərəkatı "ASAN xidmət"dən başlamışdır. Ondan sonra həmin "ASAN xidmət"də sənin kimi fəaliyyət göstərən gənclər mötəbər beynəlxalq idman yarışlarında da böyük işlər görmüşlər".

Bütün oyunlarda iştirak etmiş könüllüləri şəxsi Fəxri diploma təltif etdiyini deyən dövlət başçısı onların hər birinin fəaliyyətini oyunlar gedən vaxt izlədiyini vurğulayıb: "Görürdüm ki, bizim gənclərimiz nə qədər böyük məhəbbətlə, peşəkarlıqla, nəzakətlə bütün qonaqlara xidmət göstərirlər, yol göstərirlər, kömək edirlər. Bilirsiniz, bu, artıq tərbiyədir. Bu proqramdan keçən gənclər artıq gələcək həyatda da belə olacaqlar. Xalqımıza xas olan, əsrlər boyu yaşatdığımız milli-mənəvi dəyərlər də bu prinsiplər üzərində qurulubdur. Mən bu barədə dəfələrlə demişəm ki, bizim gənclərimiz xalqımızın əsrlər boyu yaratdığı dəyərləri gələcəkdə qorumalıdırlar, necə ki, biz qoruyuruq. Məhz o təqdirdə, biz öz milli mənliyimizi, ləyaqətimizi saxlaya bilərik, qoruya bilərik. Ona görə xalqımıza xas olan xüsusiyyətlər könüllülər hərəkatı ilə üst-üstə düşür".

### "Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır"

Prezident İlham Əliyev Şamaxı rayonunda zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasında yaradılmış şəraitlə də tanış olub. Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Prezident İlham Əliyev Fərdar Həsənovun mənzilində yaradılan şəraitlə maraqlanıb. Dövlət başçısı çay süfrəsi arxasında ailə üzvləri ilə söhbət edib. Fərdar Həsənov və anası Xuraman Həsənova göstərdiyi yüksək diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıq ediblər.

Prezident İlham Əliyev bu il üçüncü dəfə Şamaxıda olduğunu və zərərçəkənlərə qayğısının olduğunu bildirib: "Mən bu il üçüncü dəfədir ki, Şamaxıda oluram. Birinci dəfə o bədbəxt hadisə ilə əlaqədar gəlmişdim, fevral ayında, zəlzələ baş verəndən sonra. Müvafiq təlimatlar verildi. Bütün qüvvələr səfərbər olundu. İkinci dəfə mart ayında gəlmişdim. Artıq birinci evlərin tikintisini də qeyd etdik. Göstəriş verdim ki, maksimum çalışmalıyıq ilin sonuna qədər bütün evlər tikilsin. Şadam ki, buna nail olmuşuq. Bu da, əslində misli görünməmiş məsələdir. Çünki 10 ay ərzində bütün fərdi evlər tikildi, təmir olundu. İndi düzdür, bəzilərinin tikintisi davam edir. Hündürmərtəbəli, 174 mənzilli üç bina, o cümlədən, bu bina. Təkcə Şamaxı rayonunda yox, Ağsuda, İsmayıllıda da böyük işlər görülübdür. Bütün bunları biz dövlətin vəsaiti hesabına etdik. Bir daha göstərdik ki, Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır".

Prezident İlham Əliyev, həmçinin, onu da bildirib ki, Şamaxı rayonunun kompleks inkişaf planı artıq təsdiqlənib: "Mənim bir neçə Sərəncamım olmuşdur, həm yolların tikintisi, həm də kommunal texnikanın alınması ilə bağlı. Burada qar yağanda, bəzi yollar keçilməz olur. Ona görə kommunal texnika, müasir sərnişin avtobusları, müasir təcili tibbi yardım maşınları alınacaq. Ondan sonra dayanacaqlar, şəhər təsərrüfatı tamamilə yenilənəcək. İstəyirəm biləsiniz ki, təxminən, 4-5 aydan sonra şəhərin su problemi də tamamilə öz həllini tapacaq. Şamaxıda su problemi artıq həll olunur".

Dövlət başçısı Şamaxının qədim tarixi yer olduğu üçün adı əsrlər boyu xəritələrdə öz əksini tapan şəhərlərdən olacağını da deyib: "Şamaxı o şəhərlərdəndir, tarixi şəhərdir, Şirvanın mərkəzidir. Elə zəlzələdən sonra Şirvanşahlar buradan Bakıya köçüblər, Bakıda saray tikiblər. Amma onların yeri buradır. Nəsiminin vətəni buradır. Biz bunu, əlbəttə ki, qiymətləndirməliyik".

Prezident İlham Əliyev, həmçinin, Şamaxıya yeni icra başçısının təyinatı və vətəndaşlarla mütəmadi görüşlər keçirdiyini vurğulayaraq bildirib ki, xalqa xidmət etmək onların borcudur: "Biz gərək gənc kadrlara üstünlük verək. Bu gün "ASAN xidmət"in açılışında idim. İndi gedib baxarsınız, elə bil saraydır. Orada bütün xidmətlər avtomatik olacaq, daha o arayış sənin - bu arayış mənim, yox. Gəldin, nömrəni götürdün, səni heç kim incitməyəcək. Bütün uşaqlar da gülərüzdür".

Beləliklə, Prezident İlham Əliyevin istər xarici, istərsə də daxili məsələlərdə nümayiş etdirdiyi siyasi iradə Azərbaycanın daha da qüdrətlənməsinin, ölkənin dinamik inkişafının əsas xəttini təşkil etməklə yanaşı, əhalinin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində mütərəqqi siyasətini reallaşdırmış olur. Bu isə, son nəticədə, ölkəmizin daha da inkişaf etməsinə, sosial rifahın yüksək səviyyəyə çatdırılmasına və iqtisadiyyatımızın güclənməsinə geniş imkanlar yaradır.

**RƏFİQƏ KAMALQIZI**

# DSX-nın 2019-cu ilin yekunlarına həsr olunmuş hesabat müşavirəsi keçirilib



***Dünən Dövlət Sərhəd Xidmətinin 2019-cu ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş hesabat müşavirəsi keçirilib. SİA-ya Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən verilən məlumata görə, hesabat müşavirəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev iştirak edib. General-polkovnik Məhərrəm Əliyev Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərhəd təhlükəsizliyi məsələlərinə ali diqqət və qayğısı, hesabat dövründə dövlət sərhədinin mühafizəsi sahəsində əldə olunmuş nailiyyətlər, Dövlət Sərhəd Xidməti qarşısında duran vəzifə və tapşırıqlar haqqında müşavirə iştirakçıları qarşısında çıxış edib.***

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev müşavirədə hesabat məruzəsi ilə çıxış edib, silahlı birləşmələrin və digər struktur qurumların xidməti fəaliyyətini qiymətləndirib, 2020-ci ildə Dövlət Sərhəd Xidməti qarşısında duran əsas vəzifə və tapşırıqları qeyd edib.

2019-cu ilin Azərbaycan Sərhəd Mühafizəsi üçün Ermənistan ilə dövlət sərhədinin mühafizəsi və müdafiəsi işinin təşkilinə başlanılması, döyüş hazırlığının daha yüksək səviyyədə təmin edilməsi, dövlət sərhədinin toxunulmazlığının təminatı tədbirlərinin ardıcıl davamı, dövlət sərhədinin əməliyyat və texniki yolla mühafizəsinin gücləndirilməsi ilə əlamətdar olması qeyd olunub.

Dövlət sərhədinin mühafizəsinin təşkilində uğurların əldə olunması Dahi Öndər Heydər Əliyevin sərhəd mühafizəsi sahəsindəki ideya və düşüncələrinin əzmlə gerçəkləşdirilməsi, dövlət sərhədinin mühafizəsi məsələlərinə Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ali diqqəti nəticəsində mümkün olub.

Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yanvar ayının 10-da DSX Sahil Mühafizəsinin "Gəmi inşası zavodu"nda inşası yekunlaşmış "Tufan" tipli sərhəd gözətçi gəmiləri ilə tanış olması, dəniz sərhədlərinin mühafizəsi və neft-qaz infrastrukturunun mühafizəsi üzrə mühüm tapşırıqlar verməsi, iyun ayının 18-də DSX hərbi qulluqçularının və mülki işçilərinin pul təminatının vəzifə maaşlarının 40% həcmində artırılması barədə qərar qəbul etməsi, avqust ayının 16-da Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi münasibətilə DSX-nin şəxsi heyətinə müraciət ünvanlaması və DSX-nin xidməti-döyüş fəaliyyətinə yüksək qiymət verməsi, DSX-nin 6 zabitini ali hərbi rütbələrə, DSX əməkdaşlarını 13 orden, 73 medal, 7 fəxri adla təltif etməsi, Azərbaycan sərhədçisinə ali qayğının nümunəsi olaraq DSX-nin zabitləri üçün Bakı şəhərində 25 mənzilin ayrılması bütün şəxsi heyət tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

2019-cu ildə Dövlət Sərhəd Xidməti tərəfindən aşağıdakı əsas nailiyyətlər əldə olunub:

- Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığı əsasında Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsində, təmas xəttində təhvil alınmış döyüş postlarında böyük miqyaslı işlər görülmüş, Sərhəd Qoşunlarının "Qazax" ələhiddə sərhəd diviziyası xidməti-döyüş fəaliyyətinə başlamışdır. Hesabat dövründə bu istiqamətdə bütün sərhəd döyüş məntəqələri, 3 yeni hərbi hissə inşa olunmuş, sərhəd döyüş məntəqələrinə aparan və onlar arası 38,7 km məsafədə qoruyucu val sədləri və 92 km məsafədə yollar salınmış, istifadəyə verilmiş hərbi obyektlər müasir istilik sistemləri, generator və günəş batareyaları ilə təmin edilmiş, sərhəd döyüş məntəqələrinə sənaye işığı, qaz və su xətləri çəkilmişdir.

- mart və iyun-iyul aylarında düşmənin Qazax rayonunun Babakar dağı istiqamətində öz mövqelərini Azərbaycan ərazisinə doğru irəli çəkmək cəhdləri vaxtında aşkarlanmış, qabaqlayıcı tədbirlər nəticəsində sərhəd döyüş məntəqələrinin döyüş mövqelərinin 1,5-1,7 km irəli çəkilməsinə, nəticədə müqabil ərazidəki Gürcüstandan Ermənistana gedən qaz xəttinin və qaz-kompressor stansiyasının tam nəzarətdə saxlanılmasına nail olunmuşdur.

- Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyəti məqsədilə xarici xüsusi xidmət orqanları ilə əlaqədə şübhəli bilinən 15 nəfər, məxfi əməkdaşlığa cəlb olunmuş 1 nəfər müəyyən edilmişdir;

- xarici münaqişə zonalarında döyüşmüş 23 nəfərin şəxsiyyəti müəyyən olunmuş, onlardan 6 nəfər Azərbaycan vətəndaşı saxlanılmış, qanunsuz miqrasiya ilə məşğul olan 6 qrup, qaçaqmalçılıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 15 mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirilmişdir;

- Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi və Dahi Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə:

- "Vətənə xidmət andımız, amalımızdır" şüarı altında 5 km 100 metr uzunluğunda dövlət bayrağı ilə 5000 sərhədçi yürüş etmişdir.

- Bakı şəhərində Milli Parkda "Azərbaycan Sərhəd Mühafuzəsi: dünən, bu gün və sabah" mövzusunda bayram tədbiri rəşkil olunmuş, Azərbaycan tarixində ilk dəfə olaraq bu cür formatda təşkil olunan tədbir ictimaiyyət tərəfindən böyük marala qarşılanmış və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinə ciddi töhfə olmuşdur.

- Dövlət Sərhəd Xidmətinin aparatının inzibati binasında "Siyasi repressiya qurbanları Muzeyi" yaradılmışdır.

- dövlət sərhədini pozduqlarına görə 739 nəfər, sərhədboyu rejim qaydalarını pozduqlarına görə 13 min 526 nəfər, axtarışda olan 4699 nəfər saxlanılmışdır.

- 479 nəfər saxta, 51 nəfər özgəsinin sənədi ilə və 4 nəfər gizli şəkildə dövlət sərhədindən buraxılış məntəqələrindən keçməyə cəhd edərkən saxlanılmışdır.

- 96 milyon 376 min manat dəyərində qaçaqmalın, 2 ton 240 kiloqram 973 qram narkotik vasitənin dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısı alınmışdır.

- geniş miqyaslı döyüş atışlı taktiki dəniz sərhəd təlimləri keçirilmiş, gəmi silahlarının gecə və gündüz şəraitində atışları zamanı bütün təlim tapşırıqları yüksək səviyyədə icra olunmuş, şəxsi heyət tərəfiindən böyük döyüş məhamrəti nümayiş etdirilmişdir.

- sərhəd xəttində xüsusi işarəverici texniki komplekslərin, texniki müşahidə məntəqələrinin və videomüşahidə kameralarının quraşdırılması nəticəsində dövlət sərhədinin pozulmasının qarşısının texniki yolla alınması sahəsində önəmli nəticələr əldə olunmudur.

- dövlət sərhədinin mühafizəsi infrastrukturunun təkmilləşdirilməsi tədbirləri uğurla davam etdirilmiş, 148 binadan ibarət tikinti komplekslərinin əsaslı təmir-tikintisi həyata keçirilmişdir.

- Dövlət Sərhəd Xidməti tərəfindən 2002-ci ildən etibarən tətbiq olunan sərhəd bölmələrində "Valideyn günləri"nin keçirilməsi təcrübəsi uğurla davam etdirilmiş, hesabat dövründə bu cür 109 görüş keçirilmişdir. Hesabat müşavirəsində Azərbaycan sərhədçilərinin Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırıqlarını və vəzifə borclarını daima şərəf və ləyaqətlə yerinə yetirəcəkləri vurğulanıb.





## İslahatın ilk hədəfi: Düşüncə "inqilabi"!

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Çoxdan vacib olan proses başlayıb ölkəmizdə. Cəmiyyəti illərdir ki, sıxan, narahat edən əngəlləri aradan qaldırmaq, yeni düşüncəli kadrlarla dövlətin sütunlarını gücləndirmək, insanlarla səmimi ünsiyyət qurub onların dərdinə çarə qılacaq, dövlətin imicini vətəndaşın gözündə yüksəldəcək kadrları işə qoşmaq ən vacib və strateji məsələdir. Sadə və aktual bir məqamı xatırladım: Dövlət institutlarında mükəmməl yeniliklər, ilk növbədə, neçə illərdir ki, bəzi bürokratların qapısında mürgü vurmağa məcbur olan, bütün bunlardan sıxıntı çəkən sadə insanlar üçün əsl cənnət qapısı açmağa bərabər işdir. Bu, sadəcə, yeni elan edilən islahat proqramına hansısa formal tərif demək deyil. Bu, sadəcə, gerçək ictimai ehtiyacın məntiqi təsviridir. Cəmiyyətdə mövcud olan əyər-əksikliklərə son qoymaq, yeni, müasir yanaşma üsulu ilə çalışmaq və qərarları icra etmək olduqca vacibdir. Özü də dünyanın və sivilizasiyanın indiki vaxtında bu məqam qaçılmazdır.***

Amma hər şeydə olduğu kimi, bu islahat prosesində də diqqət edilməsi lazım olan ən vacib məqam, formallığı yaxına buraxmamaq, real və gerçək işlərə yol açmaqdır. Bunun üçün əməli işə girişmək tələb olunur, başqa heç nə!

"Hardan başlamalı" qərarına gəlsək, cəmiyyətin əl gəzdiriləsi o qədər problemi var ki. Amma unutmayaq ki, əməli iş ilə bu yanaşmaya başlamaq gərək. Əks halda yenə formallıq çərgəsinə düzüləcək bu ideya da durna qatarı kimi...

Əslində, artıq neçə ildir ki, ölkəmizdə islahat prosesi mərhələli şəkildə reallaşmaqdadır. Özü də effektli bir tərzdə. Minlərlə insanın canını süründürməçilikdən, get-gəldən qurtaran "ASAN Xidmət" sisteminin işə düşməsi, məncə, cəmiyyətdəki islahat anonsunun ilk siqnalı idi. Cəmiyyət, sözün əsl mənasında, yeniliyə ac idi. Süründürməçilikdən, bəzi rüşvətxor insanlardan, ümidsizlikdən bezən ictimai mühit, artıq geridə qalıb demək olar. İnsanlar bir növ yeni, amma hələ də tam təsəvvür etmədikləri, amma illərdir həsrətində olduqları düşüncə tərzi və idarəetmə sisteminin qoxusunu alıblar sanki.

Nədən? Çünki artıq cəmiyyətdə əməllicə islahat ab-havası, sabaha ümid qığılcımı var. Həm də ona görə ki, neçə ildir bu istiqamətdə, məhz həmin ümidsiz cəmiyyəti ÜMİDLƏNDİRƏN işlərə başlanılıb. "ASAN Xidmət"-in daha bir əsas özəlliyi, əsasən də, ümidsiz insanları ümidləndirən cəhəti onunla bağlıdır ki, bu sistemin işə düşməsi ilə, illərdir başqa sahələrdə üfunət iyi verən digər süründürməçilik "anbarı" tamamilə sıradan çıxarıldı və ictimai zibilliyə gömüldü. Bu, sözün əsl mənasında, əsl İCTİMAİ İNQİLAB idi. İstənilən vətəndaş, siyasi mövqeyindən və sosial durumundan asılı olmayaraq, hər kəs əlini vicdanına qoyub etiraf edər ki, sovet bürokratiya sisteminin tamamilə çökdürülməsi və cəmiyyətdən alaq otu kimi təmizlənməsi üçün ilk cığırı, məhz "ASAN Xidmət" açdı. Asan Xidmət demək olar ki, ümidsiz ictimai xofu tamamilə dağıtdı. Hər kəs anladı ki, süründürməçilik etmədən də vaxtında istənilən məsələnin həllinə nail olmaq mümkündür.

Əslində, islahat və yenilik prosesinin inzibati-struktur tərəfi ilə yanaşı, ən vacib məqamı, məhz bu yeniliyi dərk edərək yola çıxan YENİ TƏFƏKKÜR və DÜŞÜNCƏ sahibi olmaqdır. Yəni bu islahatı reallaşdıracaq insan faktorunun ən əsas özəlliyi, ilk növbədə, islahat və yenilik ehtiyacını hava və su qədər önəmli olduğunu dərk edən beyin və düşüncəyə sahib olmaqdır. Məncə, indiki mərhələdə bizim ən çox və ən əsas ehtiyac duyduğumuz məsələ budur. Yaş fərqinə görə az yaşlı, amma yenilik şüurunda olmayan kəsimlə yeni yola çıxmaq da eyni dərəcədə təhlükəlidir. İnsan şüurunda yenilik ehtiyacı olmadan və yeniliyə köklənmiş fikir olmadan hansısa uğura və yeniliyə sahib olmaq da olduqca çətin məsələdir.

Fikir verin, uzun illərdir ki, bir sıra adamlar oturduqları kreslolarda elə ilk gündən vəzifəyə təyin olunduqları düşüncə ilə ayrılırlar. Nədən? Çünki yenilik, yeni işlər görmək, xüsusilə, zaman faktoruna önəm verib dünya ilə ayaqlaşmaq təfəkkürü çoxdan dəfn olunub beyinlərdə. Yenə "ASAN Xidmət" sektorundan daha bir misal. Bu yeni sistemin əsas özəlliklərindən biri də o oldu ki, ictimai şüurda tərpəniş yarandı, dövlətlə yanaşı, cəmiyyət də bu islahat prosesinin əsl qurtuluşa bərabər missiya olduğu barədə həmrəylik göstərdi. Artıq yenilik ehtiyacı qaçılmaz idi. Amma bu fikirdə qəti əminəm ki, islahat üçün ilk addım düşüncələrdən, təfəkkür və şüurun yenilənməsindən asılıdır. Çünki köhnə düşüncə ilə yeni iş qurmaq, daha çox çürük taxta ilə yeni ev tikmək həvəsinə bənzəyir. Odur ki, düşüncə "inqilabı" islahatın ilk açarıdır!

# AXCP və Müsavat funksionerlərinə xaricdən növbəti tapşırıq verilib

***Tərəflər bir-birini satqınlıqda və xəyanətdə ittiham edirlər. Bir qədər əvvəl birlikdə olmaq, hansısa yeni bir blok yaratmaq ideyası ilə çıxış edən Müsavat və AXCP fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə bağlı yenidən fərqli mövqe nümayiş etdirirlər. Müsavat seçkilərə qatılmaq, AXCP isə, "boykot" çağırışı ilə çıxış edir. Bu amil yenidən AXCP ilə Müsavatın bir-birini təhqir etməyə, ittihamlar irəli sürməyə əsas olacaqmı? Söhbət etdiyimiz müsahiblərimiz qeyd etdilər ki, hər zaman bir-birinə qarşı düşmən münasibət sərgiləyən AXCP və Müsavat partiyaları seçkilərlə bağlı fərqli mövqelərindən sonra bir-birinə qarşı daha sərt formada ittihamlar irəli sürəcəklər.***



### Millət vəkili Məlahət İbrahimqızı: "Destruktiv müxalifət milli və dövlətçilik maraqlarımıza qarşı pozucu cəhdlər göstərir"



- Hər zaman destruktiv müxalifət milli və dövlətçilik maraqlarımıza qarşı pozucu cəhdlər göstərir. Bu məkrli fəaliyyətləri ilə seçilən müxalif partiyalar və onların liderləri, qurumlarını yaratdıqları gündən xarici mərkəzlərə bağlı olublar, bəziləri də erməniпərəst qüvvələrə xidmət edirlər. Bu gün dünya erməni diasporunun, erməni lobbisinin təsiri altında olan ABŞ-ın Senatı "erməni soyqırımı" ilə bağlı layihəni qəbul edib. Bu, nəyin göstəricisidir? Bu, bir daha göstərir ki, ABŞ ATƏT-in Minsk Qrupunun həmsədri kimi, heç vaxt obyektiv mövqe göstərə bilməz. Erməni işğalçılarının Azərbaycana qarşı törətdikləri işğalçılığı pisləmək əvəzinə, "işğala son qoy" demək əvəzinə, Ermənistanın maraqlarına dəstək verir. BMT və digər dünyanın nüfuzlu beynəlxalq təşkilatları Ermənistanın işğalçılıq siyasətini pisləyib, Azərbaycanın işğal edilən torpaqlarının boşaldılması ilə bağlı qətnamə qəbul edib. Eləcə də, bəzi ölkələr erməni hərbi birləşmələrinin Xocalıda törətdikləri vəhşilikləri soyqırımı aktı kimi tanıyıb. ABŞ-ın bir sıra əyalətlərində, ştatlarında Xocalı soyqırımını tanıyan qətnamələr və sənədlər qəbul olunub. Amma çox təəssüf, bütövlükdə, ABŞ Senatı və Konqresi bununla bağlı mövqe göstərməyib. Yəni dünyanın gözü qarşısında baş vermiş Xocalı soyqırımına, Xocalı cinayətinə qarşı mövqe göstərmirlər. Bu, nə deməkdir? Bu da, bir daha onların erməniпərəst mövqeyə malik olduqlarını göstərir. Azərbaycanda fəaliyyət göstərən destruktiv müxalifəti ölkəmizə qarşı dünyada gedən qlobal təhdidləri, təhlükəni görərkən, onların maraqlarına dəstək verməyə çalışır, müəyyən təxribatlar və pozucu aktlarla Azərbaycanın artan nüfuzuna, sosial, iqtisadi, hərbi gücünə kölgə salmağa çalışırlar. Bilirsiniz, seçki siyasi mübarizədir, parlament siyasi mübarizənin məkanıdır, meydanıdır, tribunasıdır, arenasıdır, yəni siz gəlin seçkilərdə iştirak edin və hansı sosial dayaqlara malik olduğunuzu nümayiş etdirin. Seçkidə iştirak etməmək, özünə inamsızlıqla bağlıdır. Onlar bilirlər ki, xalq onlara səs verməyəcək. Çünki xalq onları yaxşı tanıyır, hansı qaranlıq keçmişə, bugünkü məkrli planlar həyata keçirməyə çalışdıqlarını bilir. Azərbaycanda keçirilən parlament seçkilərinə qatılmamaqla ölkədə nə isə xoşagəlməz bir vəziyyət yaradacaqlarını düşünürlər. Amma onlar heç vaxt buna nail ola bilməyəcəklər. Bir sözlə, xalqımız, seçkidə iştirak etsələr belə desktruktiv müxalifətə heç vaxtı səs verməz, çünki onların mövqeyi də, dəstəkçiləri də məlumdur.

### Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev: "Bundan qabaqda müxalifətin bir hissəsi seçkilərdə iştirak etməyib"

- Liberal Demokrat Partiyası yaranan gündən hər bir seçkilərdə iştirak edib. Bundan qabaq da müxalifətin bir hissəsi seçkilərdə iştirak etməyib. Seçkilərlə bağlı fərqli yanaşmanı yalnız keçirilən seçkilərdə iştirak etməklə bilmək olar. Yəni iştirak etmədən sübut etmək olmaz ki, bu seçkilərdə nələr baş verəcək. AXCP, Müsavat və "Milli Şura"nın indidən fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə bağlı qeyri-dəqiq fikirlər səsləndirməsi düzgün deyil.

### Millət vəkili Fazil Mustafa: "Boykot qərarı AXCP və "Milli Şura"ya böyük problem yaradacaq"



-AXCP və "Milli Şura"nın parlament seçkilərinin boykot etməsi məsələsi xaricdən verilən tapşırıq olduğu olmadı, bu, ağıllı qərar deyil. Bütövlükdə partiya seçkidə iştirak etmək üçündür. İnandırıcı görünmür ki, xaricdən belə ağılsız qərar versinlər ki, seçkilərdə iştirak etməyin. Əksinə, partiya seçkidə iştirak edib, həm təşkilatını gücləndirər, həm də öz təbliğatını aparar. Bunlar nə istəyirlər? Öz təbliğatlarını aparmaqdan niyə imtina edirlər? Onların boykot qərarları sağlam mühakimə ilə həyata keçirilmədiyinin bir göstəricisidir. Yəni reallığı anlamamaqdan irəli gələn bir addımdır. Ona görə də, bu addımlar, təbii ki, cəmiyyət tərəfindən də müsbət qarşılanmır. Boykot qərarı AXCP və "Milli Şura"ya böyük problem yaradacaq. Çünki partiya olaraq onlar passiv bir yol tutublar və siyasi mübarizədən imtina edirlər. Ona görə də, bu qınanılası bir qərardır, partiya seçkidə aktiv iştirak edər və müxalif mövqeyini cəmiyyətə çatdırar, özünün də təbliğatını aparmaq fürsətini əldə edər. Ümumiyyətlə, ölkədə seçkilər keçirilən zaman radikal qüvvələrin bu cür hərəkətlərə əl atmaları gücsüzlükdən irəli gəlir. Bu, həm də onların seçkilərə hazırlıqsız olmalarını göstərərir. Amma bu cür bəyanatların mənası yoxdur. Yəni hər an seçkiyə hazır olmalısan və bu proseslərə qatılmalısan. Ona görə də, onların yanaşmasının ciddi əsası yoxdur və bu çəkingənlik, əslində, onların partiya və siyasi qüvvə kimi cəmiyyətin yaddaşından silməyə yönəndirir.

***GÜLYANƏ***

## Əhməd Davudoğlu yeni partiya yaratdı



Türkiyənin keçmiş baş naziri Əhməd Davudoğlu yeni partiya yaradıb. SİA "Hurriyet"ə istinadən xəbər verir ki, dekabrın 13-də paytaxt Ankarada Gələcək Partiya adlı siyasi təşkilatın tanıtım toplantısı keçirilib. Partiyanın təsisçiləri 154 nəfərdən ibarətdir. Onlardan bir hissəsi hakim Ədalət və İnkişaf Partiyasından istefa verən şəxslərdir. Gələcək Partiyanın şüarı isə belədir: "Bizim bir gələcəyimiz var".

Partiyanın tanıdılması toplantısında çıxış edən sədr Ə.Davudoğlu deyib: "Keçmişi qaralamağa deyil, ortaq bir gələcək qurmağa, yeni şeylər söyləməyə gəlmişik. Üz turşutmağa deyil, təbəssüm göstərməyə gəlmişik. Hazırda bizi bir-birimizdən ayıran deyil, birləşdirən siyasət barədə danışmalıyıq".

# Ermənistan hərc-mərclik və xaos burulğanında

## Və yaxud erməni ictimaiyyəti quduzlaşmış Paşinyana “Qarabağ Azərbaycanındır!” çağırışı ilə düz yola gəlməsini tələb edir

***Bu gün Ermənistan “dənizsiz ada” durumuna düşüb. Azərbaycan ərazilərinin işğalına son qoymadan düz 30 ildən çoxdur ki, Ermənistan işğalçılıq siyasəti aparmaqla, ölkəni uçuruma doğru aparıb. Bunun da səbəbi ölkəyə rəhbərlik edənlərin işğalçılıq siyasəti aparmalarıdır. Artıq ermənilər də bu siyasətin onlara hansı bəlalar gətirdiyinin, düz 30 ildən çoxdur ki, şahididir. Məhz buna görə də, erməni ictimaiyyəti “Qarabağ Azərbaycanındır!” çağırışı ilə Paşinyanı düz yola gəlməsini tələb edir, əks halda onun da sonunun Sarkisyan yolu - istefa olacağını bildirirlər.***

Gözəl bir deyim var: tarixi həqiqətləri inkar etdikdə, reallıq hissi itirilir. Bu, həqiqətən də, belədir. Bu gün Ermənistanın küt “demokratı” Nikol Paşinyan əsassız ittihamlarla çıxış etməklə, yalan və əsassız iddialar irəli sürməyə vərdiş etdiyi üçün, rusların ermənilərə, daha doğrusu, Serj Sarkisyanın Ermənistanın dövlət başçısı olduğu zaman ona verilən “it quyruğu” adı bu gün Paşinyana da aid olması ilə barışmalıdır.

Bu yerdə bir məqamı da xatırlatmaq yerinə düşər: “yalan ayaq tutar, yeriməz”. Nikol Paşinyan hansı formada yalan danışsa da, yenə də həqiqət üzə çıxır. Hətta Ermənistan Rusiyanın forpostu olsa belə, artıq işğalçı ölkənin iyrənc və çirkin yalanlarından bezərək həqiqəti birbaşa efirdə belə səsləndirilir və politoloqlar hər şeyi açıq-aydın deyirlər.

### Yaxud Nikol Paşinyan öz yalanının qurbanına çevrilir

Belə bir atalar sözü var “adam özünə etdiyini, kimsə ona edə bilməz”. Çünki yalan danışan heç vaxt əvvəl dediyi sözü yadında saxlaya bilmir. Ermənistanın baş nazir Nikol Paşinyan da, nəinki verdiyi vədləri ən azı, xatırlamalıdır, o, heç dediyi sözün mənasını də anlamır. Bu da təəccüb doğurmur. Çünki küçə “demokratı” “siyasətin” nə məna verdiyini belə anlamır və elə özünə layiq də sərsəm bəyanatlar verərək, başını cəncələ salmaqla yanaşı, oturduğu “kresloya” da “əlvida!” deməyin ömrünü qısaldır.

Bu yerdə, N.Paşinyan hələ deputat olanda, Ermənistan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov bir dəfə parlamentdə çıxışında bəyan etmişdi ki, “satqınlığın əsasında yalan durur. Və bu yalanı dilinə gətirən insan heç kimi yox, özünü aldadır”. Bu sözləri özünün “faceboook” səhifəsində Ermənistan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov yazıb. Daha sonra isə, baş nazirin verdiyi bəyanatların, vədlərin yalan olduğunu bildirib. “Məsələn, Paşinyan deyirdi ki, vendetta olmayacaq - amma var. Paşinyan ümumi birlik vəd edirdi. Lakin cəmiyyəti “ağlara” və “qaralara” böldü. Məhəbbət və rəzılıq əvəzinə, nifrət aşılamağa başladı. Bundan əlavə, pensiyalarla bağlı artım olacağını bildirsə də, indi susmağa üstünlük verir. “Qırmızı xətlərə” qarşı çıxırdı - bu gün onlar mövcuddur. Baş nazir videokameralara qarşı çıxırdı - bu gün onlar hələ də qalır” deyə parlamentin keçmiş vitse-spikeri vurğulayıb. Əlavə edib ki, baş nazir dəfələrlə vəd edirdi ki, ölkəyə investisiya axını baş verəcək. Amma hazırda hər hansı real investisiyadan söhbət gedə bilməz. Bütün sahələrdə inkişaf olacağını bildirirdi. Bu vədin də puç olduğu üzə çıxır.

Belə bir atalar sözü var: “keçinin buynuzu qaşınanda, çobanın çomağına sürtər”. Belə ki, Nikol fəaliyyətə başladığı ilk gündən başladı Rusiyaya qarşı sərsəm bəyanatlar ünvanlamağa. Rusiya prezidenti Vladimir Putinin Ermənistanın baş naziri Nikola dəfələrlə xəbərdarlıq ismarışları və mesajları göndərməklə, ona bu oyunlardan əl çəkməyi bildirdisə də, Paşinyan yenə də sərsəm bəyanatlar verməkdən çəkinmədi. Elə bu səbəbdən də, V.Putin Ermənistan prezidenti Armen Sarkisyana, üstəlik, Ermənistanın eks-prezidentləri - Serj Sarkisyanı və hazırda həbsdə olan Robert Koçaryanı da təbrik etdi. Beləliklə, Paşinyan hakimiyyətinin kritik günləri başladı.

### Paşinyan indi də “qaşınmayan yerdən qan çıxarır”

Bütün bu düşünülməmiş addımdan sonra Paşinyan, indi də başlayıb Ermənistanın keçmiş prezidentləri ilə ayrı-ayrılıqda haqq-hesab çürütməyə. “Ermənistanda hakim maydansevərlər və qrantyeyənlər qrupu korrupsiyaya qarşı mübarizə” adı altında respublikanın sabiq rəhbərliyinə qarşı səlib yürüşünü davam etdirməsi, həqiqətən də, Paşinyanın “qaşınmayan yerdən qan çıxarmasına” bənzəyir. Lakin paşinyançıların qəribə şıltaqlığına görə, zərbəyə sırf “Qarabağ klanı”nın nümayəndələri tuş gəlirlər.

Belə ki, məlum olduğu kimi, keçmiş prezident Koçaryan 2008-ci ilin martında seçkiləri tam uduzmuş prezidentliyə namizəd Ter-Petrosyanın (səslərin 21,5 faizini toplayıb) tərəfdarları tərəfindən təşkil edilmiş “Yere-



van-maydan”ın zorla qovulmasına görə “konstitusiya quruluşunun devrilməsi” kimi cəfəng bir ittihamla həbs edilib. Müstəntiqlər ona 3 milyon dollar məbləğində rüşvət işini “sırıya” bilməyiblər. Koçaryan Vovayeviçin qərarı ilə istintaq təcridxanasına qayıdıb. İndi də Paşinyan qıllı barmaqlarını Ermənistanın üçüncü prezidenti Serj Sarkisyana doğru uzatmaq qərarına gəlib. Sarkisyan fermerlərə dəstək milli layihəsi çərçivəsində dövlət üçün dizel yanacağının tədarükü tenderi ilə bağlı epizodda təqsirləndirilir.

Tender zamanı yaranmış vəziyyət təkcə Ermənistan üçün deyil, bütün postsovet məkanı üçün çox səciyyəvidir. Hərracda dizel yanacağına ən aşağı qiymətlər təklif etmiş firma yerinə, Sarkisyanın hansısa dostu, dizel yanacağını baha qiymətə “itələyən” şəxs qalib gəlib. Nəticədə, dövlətə bir milyon dollardan çox ziyan dəyib. Şəksiz ki, bu hadisə sabiq prezidentə başucalığı gətirmir, lakin Sarkisyana cinayət işi açılmasını birbaşa Ermənistan Konstitusiyasının maddəsi qadağan edir. Həmin maddəyə görə, dövlətin birinci şəxsləri keçmiş işlərinə görə cəzalandırıla bilməz.

Paşinyanın ətrafındakı ekspertlər donquldanaraq deyirlər: “Nə olsun, bu, boş formalizmdir: biz impiçment haqqında müddəadan istifadə edərək, onu cinayət məsuliyyətinə cəlb edəcəyik”.

Burada başını tutmayasan, nə edəsən? İndiyədək impiçment, yalnız fəaliyyətdə olan prezidentə şamil olunurdu. İstefada olan şəxsə impiçment elan etmək, hətta nonsens deyil, sözün həqiqi mənasında, marazmdır. Əgər Paşinyan və onun ətrafının Sarkisyanı korrupsiyaya görə cəzalandırmaq üçün əlləri bu dərəcədə güclü gicişirsə, onda konstitusiyaya düzəlişlər edin. Hərçənd, bu addım bir növ “arılar bala qarşı” mətləbini xatırladır. Axı, Paşinyan ömrü boyu baş nazir vəzifəsini tutmayacaq, onun özünü də, nə vaxtsa, elədiyi saysız-hesabsız səhvlərə görə divara qısnayacaqlar. Onda hesab edək ki, bu maraqlı ssenari heç bir işə yaramır. Sonda, Sarkisyan tək deyil ki. Sabiq prezidentin bir vaxtlar ürək genişliyi nümayiş etdirib, yardım göstərdiyi tərəfdarları və “xaç övladları” mütləq azadlıqda dolaşırlar. Nə edirsinizsə edin, araşdırın, sübuta yetirin, həbsə atın.

### Paşinyanın qanunsuz donosları başına bəla olacaq

Məlum olduğu kimi, Paşinyanın bəzən qanunun tələblərini və nəzakət qaydalarını büsbütün inkar edən daosları var ki, bu da, onun başına necə bəlalar açacağını hələ də anlamır. Elə götürək Vovayeviçin may ayında öz tərəfdarlarına respublikanın məhkəmə orqanlarının fəaliyyətini dayandırmaq çağırışını. Axı hakimlər maydan baş nazirinin istəyinə görə özlərini buraxmaq istəmədilər. Qanuna görə isə bu “inqilabçının” və onun ətrafının hakimləri tutduqları vəzifələrindən azad etmək səlahiyyəti yoxdur: odur ki, “qoy onların öhdəsindən xalq özü gəlsin”.

Bəs bu kabab sevən qisasçı baş nazir dizel yanacağı ilə bağlı çoxdankı işə görə Serj Sarkisyanı nə üçün küncə sıxışdırıb? Axı qanuna əsasən, ona çırtma vurmağa da haqqı yoxdur. Özü də nə üçün məhz indi? Axı sonra keçmiş baş nazir olmuş keçmiş prezident hakimiyyəti, faktiki olaraq, Paşinyana peşkəş edib. Belə bir hiss yaranır ki, qisasçılıq Paşinyanın bütün səbəb və əməllərinə, o dərəcədə sirayət edib ki, o, “sosial ədalət” və “bizdə toxunulmaz adamlar yoxdur” harayı ilə çoxdan mətbəx-kommunal xırdaçılığına və şəxsi intiqam hisslərinə yuvarlanıb.

Sarkisyana gəldikdə isə, 2008-ci ilin fevral seçkilərində, məhz o öz opponentlərini, o cümlədən, bir vaxtlar Paşinyanın buyruq uşağı kimi yanında işlədiyi Levon Ter-Petrosyanı geridə qoyaraq, Ermənistanın üçüncü prezidenti olub. Yəni formal olaraq, Sarkisyanın “Bir mart” işinə də aidiyyəti var və deməli, o, Paşinyanın “konstitusiya quruluğuna sui-qəsd”ə görə həbsxanada oturmasında “günahkardır”.

### Paşinyan 2020-ci ilə itmiş “başının” axtarışı ilə...

Bu yerdə qeyd edək ki, ekspertlər bu günlərdə Paşinyana belə bir təklif veriblər ki, nə qədər ki, başın bədənindədir, bu oyundan geri çəkil. Çünki 2019-cu ildə ardıcıl olan görüşlərdə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışları, artıq Ermənistan cəmiyyətində Paşinyan rejiminə qarşı böyük nifrət və inanmazsızlıq formalaşdırdı. Və Paşinyanın yenidən sərsəm bəyanatlarla çıxış etməsi ilə, ölkədaxili ictimai-siyasi vəziyyəti öz xeyrinə dəyişmək istəsə də, nəticə uğursuzdur.

Bir sözlə, Ermənistan nə qədər təxribat törətmək istəsə də, Paşinyan və komandası da daxil olmaqla, bütövlükdə, erməni toplumunun qurtuluşu, xilası məhz elə Azərbaycanla bağlıdır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, bu gün Dağlıq Qarabağ problemindən başqa, heç bir məsələ həll olunmamış qalmır: “Aprel hadisələrindən sonra, ilk növbədə, dünya ictimaiyyəti, vasitəçiliklə məşğul olan beynəlxalq qurumlar və təşkilatlar bir daha əmin oldular ki, Azərbaycan xalqı ərazilərinin işğal altında qalması ilə barışmayıb və barışmayacaq. Bu, Ermənistan hakimiyyəti üçün də bir dərs olmalıdır. Yəqin ki, onlar lazımi nəticələr çıxaracaq və danışıqlar prosesində konstruktiv mövqedən çıxış edəcəklər. Uzun müddət davam edən status-kvo tezliklə dəyişməli, münaqişə beynəlxalq hüququn normaları və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan əsgəri “hərbi yolla Dağlıq Qarabağ münaqişəsinin həlli yoxdur” fikrini təkrarlayanlara, real şəkildə sübut etdi ki, hərbi yolla torpaqların azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi mümkündür və bu məsələ ən qısa vaxtda öz həllini tapmalıdır”.

Bir sözlə: Ermənistan nə qədər təxribat aparsa da, reallıq budur: təcavüzkar quduzlaşmış işğalçı Ermənistan zəbt etdiyi torpaqlardan çıxmalıdır, başqa yol yoxdur!

Güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Ali Baş Komandan, ölkə Prezidentinin bildirdiyi kimi: “Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq”.

***A.SƏMƏDOVA***

# "Xalq üçün" devizi ilə təbliğat-təşviqat kampaniyası uğurla davam edir

## BİLƏSUVAR





23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Biləsuvar rayon şöbəsi bələdiyyə seçkilərinin "Xalq üçün" devizi ilə təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun səhiyyə sahəsində çalışan işçilərlə keçirilən görüşü olub. Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Biləsuvar rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Kamil Mirzəyev çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyasının Sədri, dövlət başçısı İlham Əliyevin beynəlxalq aləmdə və xalqımız arasında nüfuzu çox yüksəkdir: "Ona görə də, tam əminliklə deyə bilərəm ki, 23 dekabr bələdiyyə seçkilərində xalqımız özünün layiqli namizədlərinə etimad göstərəcəkdir. Bunun da çox ciddi əsasları var. Dünyada baş verən mürəkkəb proseslərin fonunda Azərbaycan yüksək dinamika ilə inkişaf edir, ictimai-siyasi sabitlik təmin olunub, ölkədə lider-xalq birliyi sarsılmazdır. Bütün bunlar 2003-cü ildən etibarən Ulu Öndərimizin əbədiyaşar ideyalarının müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi və uğurla davam etdirilməsi nəticəsində, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 16 ildə, ölkəmizin əldə etdiyi misilsiz siyasi, iqtisadi, sosial, mədəni nailiyyətlər, əhalinin sosial rifahının daha da yüksəldilməsi məqsədilə icra olunan sosial layihələr, ölkəmizdə yerli özünüidarəetmə strukturları olan bələdiyyə institutunun inkişafı və fəaliyyət mexanizmi üçün yaradılmış zəruri qanunvericilik bazası, xüsusilə, son dövrdə bələdiyyələrin maliyyə mənbələrində yaradılmış yeni imkanlar nəticəsində, Azərbaycan tarixində olmadığı qədər güclü dövlətə çevrilib".

Seçki Qərargahı üzvlərindən Akif Kazımov, Əjdər Niftiyev və digərləri çıxış edərək Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi müddətdə Azərbaycan Respublikasının hərtərəfli inkişaf etdiyini qeyd ediblər.

Həmçinin, "Xalq üçün" devizi ilə təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Bəydili və Çinarlı kəndlərində seçicilərlə keçirilən görüşdə Biləsuvar rayon təşkilatı Seçki Qərargahının üzvü Qənbərəli Bağırov və rayon təşkilatının aparat rəhbəri Əjdər Niftiyev seçicilər qarşısında çıxış edərək, ölkədə həyata keçirilən irimiqyaslı layihələrin ölkə Prezidenti İlham Əliyevin adı ilə bağlı olduğunu, seçki proseslərində böyük fəallıq göstərməyə və partiyanın namizədlərinə səs verməyə çağırıblar.

Görüşdə rayonun Bəydili kənd sakinləri Əfsər Həşimov, Xüdaşükür Əliyev, Çinarlı kənd sakinləri Rafiq Cəfərov, Ramiz Əliyev seçkilərdə fəallıq nümayiş etdirəcəklərini, YAP-ın Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini vurğulayıblar.

## TƏRTƏR





23 dekabrda keçiriləcək seçkilərlə bağlı YAP Mərkəzi Seçki Qərargahının Tərtər rayon şöbəsi tərəfindən bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun İsmayılbəyli və Evoğlu bələdiyyələrində keçirilən görüşdə YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov bildirib ki, bələdiyyə seçkiləri ölkəmizin siyasi həyatında mühüm yer tutur: "İnanırıq ki, seçicilərimizin hər biri 23 dekabr bələdiyyə seçkilərində fəal iştirak edəcək, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcək".

Tədbirdə, həmçinin, rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvlərindən Əliyeva Nigar, Şahin Hüseynov, kənd sakinlərindən Firdovsi Məmmədov, Teyyub Əliyev, Məhəmməd Şirinov və başqaları çıxış edərək, rayonda bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat işlərinin uğurla yekunlaşacağını və bu seçkilərdə də Yeni Azərbaycan Partiyasının namizədlərinin qalib gələcəyinə əmin olduqlarını bildiriblər.

## QARADAĞ





Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı keçirilən təbliğat-təşviqat kampaniyası çərçivəsində Qaradağ rayonunun Qızıldaş qəsəbəsində YAP tərəfindən namizədliyi irəli sürülmüş nümayəndələrlə seçicilərin görüşü keçirilib. Görüşdə YAP-ın Qaradağ rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü, millət vəkili Aydın Hüseynov çıxış edərək, partiya tərəfindən namizədliyi irəli sürülən namizədləri ayrı-ayrılıqda seçicilərə təqdim edərək, bildirib ki, xalqın etimadını əməli işi ilə doğruldan partiyamız bələdiyyə seçkilərinə də ciddi hazırlaşaraq, növbəti dəfə seçicilərin yekdil səsini qazanmaq fikrindədir: "Bu günə qədər keçirilən bütün seçkilərdə partiyamızın namizədlərinin xalq üçün, Azərbaycanın rifahı və quruculuğu naminə fəaliyyət göstərməsi seçicilər tərəfindən yüksək razılıqla qarşılanıb. Növbəti seçkilərdə də namizədlərimizin dəstəklənəcəyinə əminik. Çünki YAP xalqımızın həyatında müstəsna xidmətləri ilə seçilən partiyadır".

Tədbirdə çıxış edən rayon seçiciləri xalqın etimadını əməli işi ilə doğruldan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildiriblər.

## XAÇMAZ





23 dekabrda ölkəmizdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonunun Çaykənarı, Qusarçay, Həsənqala kənd seçiciləri ilə görüşdə YAP Xaçmaz rayon təşkilatının sədr müavini, qərargah üzvü Abasyar Heydərov çıxış edərək dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri haqda danışıb, bələdiyyələrin tarixi və funksiyaları barədə tədbir iştirakçılarına geniş məlumat verib.

O, həmçinin, bələdiyyə seçkilərində partiya tərəfindən rayon bələdiyyələrinə irəli sürülmüş namizədlərin perspektivli, vətənə və dövlətə sədaqətli olduqlarını qeyd edib. A.Heydərov YAP-ın, əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də qələbə qazanacağına əmin olduğunu qeyd edib.

Tədbirdə qərargah üzvü Fazil Rəhmətov, seçicilərdən Mirzəşah Mikayılov, Taci Əliosmanov, Qərib Aşkari, Şahin Muradov, Nahidə Səbzəliyeva və başqaları seçkilərin ədalətli, demokratik tərzdə və rəqabət mühitində keçəcəyinə inandıqlarını bildiriblər.

Ardı Səh. 11

# "Xalq üçün" devizi ilə təbliğat-təşviqat kampaniyası uğurla davam edir

Əvvəli-Səh-10

### İMİŞLİ





23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində İmişli rayon gəncləri ilə keçirilən görüşdə YAP İmişli rayon təşkilatının aparat rəhbəri İlham Əsgərov ölkə Prezidenti İlham Əliyevin uğurlu və düşünülmüş siyasəti nəticəsində, əldə edilən nailiyyətlər, Azərbaycanın uğurları, onu deməyə əsas verir ki, ölkəmiz getdikcə, daha yüksək zirvələr fəth edəcək. O, respublikamızda bütün sahələr kimi, gənclərlə iş sahəsinə də dövlətimiz tərəfindən böyük qayğı göstərildiyinə diqqət çəkib, rayonda gənclərin hərtərəfli inkişafı, ictimai-siyasi fəallığının artırılması üçün əlverişli şərait yaradıldığını nəzərə çatdırıb. Azərbaycan Respublikasının növbəti bələdiyyə seçkiləri ərəfəsində olduğunu bildirən İ.Əsgərov, ilk dəfə səs verəcək gəncləri bu tarixi prosesdə iştirakları münasibəti ilə təbrik edib, hər bir sahədə fəal olduqları kimi, bu seçkilərdə də birlik nümayiş etdirməyə, 23 dekabr seçki günü seçki məntəqələrinə gələrək, parlaq gələcəyə səs verməyə çağırıb.

Görüşdə YAP İmişli rayon təşkilatı NTQ-nin sədr müavini Vahid Tağıyev, rayon təşkilatı gənclər birliyinin sədri Rüfət Muradov, rayon təşkilatının məsləhətçisi Firdovsi Əliyev və başqaları çıxış edərək, bələdiyyə seçkisində hər kəsi fəal iştirak etməyə və səsvermə hüququndan yararlanmağa çağırıblar. Görüş geniş diskussiya şəraitində keçib.

### SAMUX



Samux rayonunda bələdiyyə seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində Sərkar və Qovlarsarı



kəndlərinin seçiciləri ilə keçirilən görüşdə Seçki Qərargahının Samux rayon şöbəsinin sədri Gündüz Bayramov çıxış edərək, müasir müstəqil Azərbaycanın banisi, Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılmış Yeni Azərbaycan Partiyasının cəmiyyətin demokratikləşməsindəki müstəsna yeri və rolundan, ölkəmizdə keçirilən bütün seçkilərdə qazandığı parlaq qələbələr, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 16 ildə ölkəmizin əldə etdiyi misilsiz siyasi, iqtisadi, sosial və mədəni nailiyyətlərdən danışıb. G.Bayramov bütün seçiciləri seçki günü seçki məntəqələrinə dəvət edərək, Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıb.

Görüşdə seçicilər adından Şakir Məmmədov çıxış edərək, 23 dekabr bələdiyyə seçkilərində seçicilərin fəal iştirak edəcəklərinə, YAP-ın irəli sürdüyü namizədlərə səs verəcəklərinə əminliyini bildirib.

### ASTARA





Respublikamızın bütün bölgələrində olduğu kimi, Astara rayonunun da bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası uğurla davam edir. YAP Astara rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Təngərüd kəndində seçicilərlə keçirilən görüşdə rayon təşkilatının sədri Firudin Əhmədov çıxış edərək partiyanın ötən müddət ərzində, müstəqil Azərbaycan dövlətinin inkişafına mühüm töhfələr verdiyini, bu istiqamətdə fəaliyyətini uğurla davam etdirdiyini qeyd edib və hamını 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən ən layiqli namizədlərə səs verməyə çağırıb.

Görüşdə rayon ağsaqqalları Gülağa Rzayev, Ələsgər Əliyev, kənd seçicilərindən Sehran Babayev, Əbülhəsən Muradov, İlham İlhami, Ləyaqət Mürsəlova bu seçkilərin də böyük fəallıq və coşqu nümayişilə keçəcəyinə, YAP-ın layiqli namizədlərinə səs verəcəklərinə əmin olduqlarının söyləyiblər.

### GÖYÇAY






YAP Göyçay rayon təşkilatı 23 dekabr keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Ləkçıplaq kəndində keçirilən görüşdə Yeni Azərbaycan Partiyası Göyçay rayon Seçki Qərarhagının, eyni zamanda, Göyçay rayon təşkilatının sədri Sahib Şükürov rayon təşkilatı tərəfindən görülən işlər barədə geniş məlumat verərək, qarşıdan gələn bələdiyyə seçkilərinin mühüm əhəmiyyətini qeyd edib. S.Şükürov ölkə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində, ölkəmizin son illərdə əldə etdiyi uğurlardan bəhs edərək, Yeni Azərbaycan Partiyasının müstəqil Azərbaycan dövlətinin inkişafına mühüm töhfələr verdiyini və bu istiqamətdə fəaliyyətini uğurla davam etdirdiyini bildirib. Həmçinin, rayon təşkilatının sədri seçiciləri, seçki günü daha fəal olmağa və partiyamızın namizədlərinə səs verməyə çağırıb.

Görüşdə təbliğat qrupunun üzvləri Rasim Hüseynov, Zenfira Əliyeva, Xəlil Orucov və başqaları 23 dekabr bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən ən layiqli namizədlərin irəli sürüldüyünü bildirərək, seçiciləri fəallığa və Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

### Səbail

Dünən 23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Səbail rayonunda ilk dəfə səs verəcək gənclərlə "Xalq üçün" şüarı altında görüş keçirilib. Görüşdə YAP-ın səlahiyyətli nümayəndəsi, YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin və rayon təşkilatının sədri, Milli Məclisin deputatı professor Şəmsəddin Hacıyev bu il ilk dəfə səs verəcək gəncləri təbrik edərək qeyd edib ki, hər bir müasir demokratik dövlətin siyasi həyatında müstəsna əhəmiyyət kəsb edən seçkilərdə ilk dəfə iştirak etmək və öz siyasi iradəsini nümayiş etdirmək imkanı əldə etmək hər bir gəncin həyatında unudulmaz tarixi hadisədir.

Millət vəkili ölkəmizdəki dövlət-gənclər siyasəti, gənclərimiz üçün yaradılmış təhsil və karyera imkanları, çoxsaylı təqaüd proqramları, eləcə də, 2018-ci ildən etibarən cəmiyyət həyatının bütün sahələrini əhatə edən sistemli islahatlar, gənclərə geniş fəaliyyət meydanı verilməsi, ölkə başçısı tərəfindən gənclərə göstərilən yüksək etimad və gənclərin cəmiyyətdəki rolunu və məsuliyyətini artıran mühüm qərarlar barədə məlumat verərək bildirib ki, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gənclərə göstərilən diqqət və qayğı ilbeil artır, bu sahədə reallaşdırılan uğurlu layihələrin sayı və miqyası günbəgün genişlənir.

Ardı Səh. 12

# “Xalq üçün” devizi ilə təbliğat-təşviqat kampaniyası uğurla davam edir

Əvvəli-Səh-11





Ş.Hacıyev bildirib ki, yerli özünüidarəetmə institutu olan bələdiyyələrə keçirilən seçkilər ictimai-siyasi fəaliyyətdə maraqlı olan və bacarığını və ideyalarını nümayiş etdirmək istəyən gənclərimiz üçün əvəzolunmaz fürsətdir: “23 dekabr 2019-cu il tarixində keçiriləcək bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən ən layiqli namizədlər, əsasən, yüksək intellektli, kreativ düşüncəli, bacarıqlı gənclər irəli sürülmüşdür, çünki gənclər inkişaf və yeni ideyalar deməkdir”.

YAP Gənclər Birliyinin sədri Seymur Orucov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasətindən danışaraq, bu gün gənclərə böyük etimad göstərildiyini, ölkəmizdə bələdiyyə institutunun inkişafında və bu sahədə görülən işlərdə gənclərin böyük rolu olduğunu qeyd edib.

Görüşdə Bibiheybət bələdiyyəsinə seçkilərdə iştirak edən namizədlər - Elmar Məmmədov, Nərgiz Ələkbərova, Rəşad Sadıqov, Rasim Mustafayev, Səbail bələdiyyəsinə seçkilərdə iştirak edən namizədlər - Səmədağa Aslanov, Nihad Allahyarlı, Cavid Yusubov, YAP Səbail rayon təşkilatının sədr müavini Mehman İsmayılov, rayon- gənclər birliyinin sədr müavini Fuad Heydərli, Azərbaycan Dövlət Pedaqoji Universitetinin I kurs tələbəsi Fidan Abbasova və Qərbi Kaspi Universitetinin I kurs tələbəsi Elnur Məhəmmədli çıxış edərək, Səbail rayonu gənclərinin hər zaman bütün ictimai-siyasi proseslərdə öncül sırada olduqlarını, bütün seçkilərdə olduğu kimi, qarşıdakı növbəti bələdiyyə seçkilərində də möhtəşəm qələbə qazanacaqlarının vurğulayıblar.

Yüksək əhval-ruhiyyə ilə keçən tədbirdə səbailli gənclər yekdilliklə ən layiqli namizədlər olan Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləyəcəklərini bildiriblər.

## Quba





23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar olaraq Quba rayonunda təbliğat-təşviqat kampaniyası uğurla davam edir. YAP Quba rayon təşkilatının seçki qərargahı Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq bu kampaniya çərçivəsində rayonun Qonaqkənd inzibati ərazi dairəsi üzrə seçicilərlə görüş keçirib. Görüşdə 200 nəfərə yaxın seçici iştirak edib.

Görüşü Yeni Azərbaycan Partiyasının Bələdiyyə seçkilərində səlahiyyətli nümayəndəsi, Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının sədri Yusif Abidov açaraq bələdiyyə seçkilərindən və dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışıb.

Tədbirdə Qonaqkənd ərazi ilk partiya təşkilatının sədri Bəxtiyar Məstanov çıxış edərək bildirib ki, 23 dekabr Bələdiyyə seçkilərində Qonaqkənd kənd sakinləri, əvvəlki seçkilərdə olduğu kimi, fəal iştirak edərək, YAP-ın namizədlərini dəstəkləyəcəklər. Görüşdə çıxış edən seçicilər ölkəmizdə gedən dinamik inkişaf və tərəqqi, vətəndaşa göstərilən diqqət və qayğı üçün ölkə başçısına minnətdar olduqlarını, bu siyasəti ürəkdən dəstəklədiklərini və seçkilərdə iştirak edərək, Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildiriblər.

## Xəzər






Dünən Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatı səhiyyə sahəsində çalışan seçicilərlə görüş keçirib. Görüşdə çıxış edən YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov öz çıxışında qarşıdan gələn 23 dekabr Bələdiyyə seçkilərində qadınların və gənclərin namizədliyinə üstünlük verilməsindən danışaraq, ölkəmizdə aparılan uğurlu islahatlar haqqında məlumat verib.

Onun sözlərinə görə, bütün sahələrlə yanaşı, səhiyyə sahəsində də uğurlu islahatlar həyata keçirilir və ümumiyyətlə, hər bir azərbaycanlı bu islahatları dərindən dəstəkləyir. “Bu reallıq, həm də onu sübut edir ki, dövlət başçımız İlham Əliyev tərəfindən verilən qərarlar, həyata keçirilən çoxşaxəli islahatlar paketi, eyni zamanda, gənclər siyasətində də öz sözünü deyir” deyə bildirən N.Əhmədov bu il keçiriləcək bələdiyyə seçkilərində gənclərin fəallıqla iştirakını da yüksək qiymətləndirib: “Əlbəttə ki, gənclər bizim gələcəyimizdir və bələdiyyələrə gənclərin gəlişi yeni kreativ ideyaların meydana gəlməsinə, bu sahənin inkişafına öz töhfələrini verəcək”.

YAP Xəzər rayon təşkilatının sədri hər kəsi, o cümlədən, səhiyyə işçilərini seçkilərdə aktiv olmağa dəvət edib.

## ZƏRDAB





Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatı 23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirilir. Seçki qərargahının təbliğat qrupu növbəti görüşünü rayonun Gəlmə, Allahqulubağı, Salahlı və Əlibəyli kəndlərindən olan seçicilərlə keçirib.

Görüşdə Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının aparat rəhbəri Səbuhi Kərimov çıxış edərək, Yeni Azərbaycan Partiyasının müasir Azərbaycan dövlətinin qurulmasında xalqın rifahının ildən-ilə yüksəlməsində əvəz olunmaz xidmətlərindən danışıb. Bildirib ki, ümumxalq dəstəyi və etimadı qazanan partiya 23 dekabr Bələdiyyə seçkilərinə “Xalq üçün” devizi ilə gedir: “İnanırıq ki, həmişə olduğu kimi, bu Bələdiyyə seçkilərində də, xalqımız YAP tərəfindən irəli sürülən namizədləri dəstəkləyəcək və partiyamız növbəti möhtəşəm uğurunu qazanacaq”.

Görüşdə Zərdab rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvləri, Cəvahir İsmayılova, Mübariz Umarov, Həsən Abulov, çıxış edərək bildiriblər ki, Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan ölkəmizdə keçirilən bütün seçkilərdə qələbə qazanıb. Əminliklə vurğulayıblar ki, YAP-ın Proqram və Nizamnaməsini, ölkə Prezidentinin fərman və sərəncamlarını fəaliyyət proqramı kimi qəbul edən, “Xalq üçün” devizi altında seçkilərə qatılan namizədlərimiz qarşıdakı seçkilərdə mütləq qələbə qazanacaq və əhalinin rifahının daha da yaxşılaşdırılmasında regionlarımızın daha da inkişaf etdirilməsində öz xidmətlərini əsirgəməyəcəklər.

## Binəqədi

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında partiyaya üzv olmaq üçün müraciət etmiş şəxslərlə görüş keçirildi.

Ardı Səh.13

# “Xalq üçün” devizi ilə təbliğat-təşviqat kampaniyası uğurla davam edir

Əvvəli-Səh-12





Görüşü giriş nitqi ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov ölkəmizdə və dünyada baş verən ictimai-siyasi və iqtisadi proseslərə diqqət yönəldib. Bildirib ki, Azərbaycan regionun aparıcı bir ölkəsi olaraq daim inkişaf edir və bu inkişaf göstəriciləri ilə bütün dünyaya nümunədir. Təbii ki, ölkəmizin çoxsaylı uğurlarının arxasında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü daxili və xarici siyasət kursu dayanır. Məhz dövlət başçısının praqmatik, düşünülmüş və uzaqgörən addımları ilə Azərbaycan bütün sahələrdə öz nüfuzunu qoruyub-saxlayır və uğurlu inkişafına davam edir. Eyni zamanda, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən kadr islahatlarından danışıb.

Görüşdə çıxış edənlər YAP-a üzv olmaq istəklərinin dövlət başçısı, YAP-ın Sədri İlham Əliyevin dövlətimizin və xalqımızın maraqlarına xidmət edən uğurlu siyasətinə verilən dəstəyin təzahürü olduğunu bildiriblər. Onlar YAP-a üzv olmağın mühüm bir missiya olduğunu və bu adı şərəflə daşıyacaqlarını qeyd ediblər. Ölkə başçısı İlham Əliyevə daim dəstək olacaqlarını bildiriblər. Görüşdə iştirak edən gənclər isə öz çıxışlarında gələcəkdə YAP-ın həyata keçirdiyi tədbirlərdə fəal iştirak etmək arzusunda olduqlarını və öz təşəbbüskarlıqları ilə seçiləcəklərini vurğulayıblar.

Görüşün sonunda bələdiyyə üzvlüyə namizədlərlə müxtəlif mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

### Ağdaş

23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar olaraq, Ağdaş rayonunda təbliğat kampaniyası uğurla davam edir. Rayonun Aşağı Zeynəddin və Mürsəl kəndlərində seçicilərlə keçirilən görüşlərdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib.







Görüşləri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının Bələdiyyə seçkilərində səlahiyyətli nümayəndəsi İsa Eminov qeyd edib ki, yerli idarəetmə institutu olan bələdiyyələrin ölkəmizdə formalaşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır, məhz 1995-ci ildə qəbul olunmuş ilk müstəqil Konstitusiyamızda bələdiyyələrin fəaliyyəti üçün müvafiq qanunvericilik bazası formalaşdırılmışdır. Hazırda bələdiyyələrin cəmiyyətimizdə rolu ildən-ilə artır və onların səmərəli fəaliyyətinin təşkili üçün zəruri qanunvericilik bazası və müvafiq strukturlar tam formalaşıb. İsa Eminov son illərdə ölkəmizdə, eləcə də, Ağdaşda gedən sürətli tikinti-quruculuq işlərindən bəhs edib. O, “Xalq üçün” devizi ilə təşviqat kampaniyasına uğurla başlayan Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən namizədlərin xalqımız tərəfindən yekdil dəstək alacağına inandığını bildirərək, seçiciləri Yeni Azərbaycan Partiyasının Seçki Proqramı ilə tanış edib.

Görüşlərdə çıxış edən seçicilər ölkəmizdə gedən dinamik inkişaf və tərəqqi, vətəndaşa göstərilən diqqət və qayğı üçün ölkə başçısına minnətdar olduqlarını, bu siyasəti ürəkdən dəstəklədiklərini və seçkilərdə iştirak edərək, YAP namizədlərinə səs verəcəklərini bildiriblər, seçiləcək yeni bələdiyyə üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzu ediblər. Bəyan ediblər ki, hər zaman yüksək seçki mədəniyyəti nümayiş etdirən YAP bələdiyyə seçkilərindən də qələbə ilə çıxacaqdır.

### Pirallahı

Dünən Pirallahı rayon Gənclər Mərkəzində Bələdiyyə seçkiləri ilə əlaqədar seçicilərlə görüş keçirilib. Azərbaycan Respublikasının Ağsaqqallar Şurası, Pirallahı rayon ağsaqqalları və Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən şəxslərin iştirakı ilə keçirilən görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov bildirib ki, cəmiyyətdə əxlaqi dəyərlərin təbliğində böyüklərə hörmət və qayğı hissinin formalaşdırılması vacib məsələlərdəndir. Bu, cəmiyyəti yaşadan ən əsas prinsiplərdən biridir. Azərbaycan Respublikası Ağsaqqallar Şurası sədrinin müavini, AMEA-nın müxbir üzvü Sudeyif İmamverdiyev çıxışında Yeni Azərbaycan Partiyasının yarandığı dövrün Azərbaycan xalqının tarixində çətin sınaq dövrü olduğunu və Ulu Öndərin rəhbərliyi altında partiyanın bu xilaskarlıq missiyasını layiqincə yerinə yetirdiyini qeyd etdi. Azərbaycan Respublikası Ağsaqqallar Şurasının Məclis üzvü, Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru,





professor Aydın Qasımov çıxışında son illərdə ölkədə aparılan sosial layihələrin həcmini, iqtisadiyyatımızın inkişafını qeyd edərək, dövlətçiliyimizin inkişafında gənclərə üstünlük verilməsini alqışladı. Pirallahı rayon Ağsaqqallar Şurasının sədri Fazil Məhəmmədov və rayon ağsaqqalı Səməd Əhmədov çıxış edərək, rayonun inkişafında ağsaqqalların gənc nəsillə daim birgə olduğunu vurğuladılar.

Görüşdə 23 dekabr 2019-cu il tarixində ölkəmizdə keçirilən Bələdiyyə seçkilərində partiya tərəfindən namizədliyi irəli sürülmüş Məmləkət Qaraçobanova Azərbaycanın və regionun ən güclü siyasi partiyası olan YAP-ın yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazandığını və partiyanın Prezident İlham Əliyevin Sədrliyi ilə dövlətimizin inkişafı və xalqımızın əmin-amanlıq içində yaşaması uğrunda mühüm töhfələr verdiyini qeyd edərək, seçiciləri partiya tərəfindən namizədliyi irəli sürülmüş şəxslərə səs verməkdə fəal olmağa dəvət etdi.

## DSX: İrandan Azərbaycana iki kiloqramdan çox narkotik vasitənin keçirilməsinin qarşısı alınıb



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 11-də “Astara” sərhəd nəzarət məntəqəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına rəsmi qaydada gələn İran vətəndaşı 1991-ci il təvəllüdlü Asadi Ramin Sedigh oğlunun üzərinə sərhəd və gömrük baxışı keçirilən zaman 25 bükümdə konfet bağlamanın içərisində və xüsusi hazırlanmış gül səbətinin altında gizlədilmiş ümumi çəkisi 2 kiloqram 137 qram tiryək aşkarlanaraq götürülüb. Saxlanılan şəxs barəsində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Qadına qarşı soyğunçuluq edənlər tutulublar



Səbail Rayon Polis İdarəsinin 39-cu polis bölməsinə müraciət edən Bakı şəhər sakini R.Ağayeva dekabrın 7-də rayon ərazisindəki parkların birində tanımadığı şəxsin mobil telefonunu və sənədlərini açıq talama yolu ilə oturacağın üzərindən götürüb qaçdığını bildirib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, soyğunçuluğu törətməkdə şübhəli bilinən paytaxt sakinləri, əvvəllər məhkum olunmuşlar - E.Mirzəyev və C.Rəşid polis əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Səbail Rayon Polis İdarəsinin 41-ci polis bölməsinin əməkdaşlarının keçirdikləri digər əməliyyat-axtarış tədbirləri nəticəsində dekabrın 1-də rayondakı evlərin birindən 5500 manat dəyərində qızıl-zinət əşyaları, habelə 200 manat və 100 avro pul oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini F.Allahverdiyev tutulub. Faktlarla bağlı araşdırmalar davam etdirilir.

# Müsavatçı jurnalist partiya rəhbərliyini nədə ittiham etdi?

*Yafəz Əkrəmoğlu: "Müsavatın bu addımı söz və ifadə azadlığına hücumdur və tənqidlərə dözümsüzlüyün göstəricisidir".*

**Müsavat partiyasının fəallarından sayılan və hazırda Avropada yaşayan Yafəz Əkrəmoğlunun təmsil olunduğu siyasi təşkilat rəhbərliyinə qarşı ittihamlarının ardı-arası kəsilmir. Mətbuatdan da, bəlli olduğu kimi, Y.Əkrəmoğlu, bir neçə dəfə partiyanın başqanı Arif Hacılı da daxil olmaqla, onun yaxın ətrafı və qruplaşma üzvlərini "mühacir biznesinə" qurşanmaqda, saxta vəsiqələr və arayışlar verməkdə ittiham edib, bu xüsusda, əlindəki bütün faktları ictimai rəyin diqqətinə çatdırıb.**




Avropada yaşayan müsavatçı, eyni zamanda, sosial şəbəkələr vasitəsi ilə də təmsil olunduğu siyasi qurum rəhbərliyini ifşa edir, nəinki mühacir biznesində, eyni zamanda, söz və ifadə azadlığını pozmaqda da suçlayır. O, təəssüflə bildirir ki, baş verən hadisələr fonunda törətdikləri əməllərini etiraf edərək, üzr istəmələri yerinə, Müsavatın rəhbərliyi bir az da irəliyə gedərək, onu məhkəməyə verib. Belə ki, bu günlərdə "Mühacir alveri ilə bağlı apardığım jurnalist araşdırmasında (kiçik bir hissəsini zaman-zaman paylaşmışam) Müsavat partiyasının da adını çəkdiyimə görə, partiya rəhbərliyi (Gülağa Aslanlı) məni məhkəməyə verib" deyə status paylaşan Y.Əkrəmoğlu partiya rəhbərliyini dözümsüzlükdə də günahlandırıb: "İlk öncə, onu bildirmək istəyirəm ki, Müsavatın bu addımı söz və ifadə azadlığına hücumdur, tənqidlərə dözümsüzlüyün göstəricisidir".

Tərəflər arasında ittihamlar bu gün də davam edir və başqan A.Hacılıya yaxınlığı ilə seçilən müsavatçılar tapşırıq əsasında Y.Əkrəmoğluna qarşı söyüş və təhqir kampaniyalarına start veriblər. Artıq belə güman etmək olar ki, Müsavatı Avropada təmsil edən Müsavat "AKM"-in ifşasından, eləcə də, fəaliyyətinə son qoymasından sonra, araşdırmaları ilə təmsil olunduğu partiyasının qanunsuz əməllərini də üzə çıxaran jurnalist Yafəz Əkrəmoğlu, çox qısa zamanda, həmin siyasi təşkilatdan istefa verəcək.

Qeyd edək ki, Müsavat partiyasının icra aparatının rəhbəri Gülağa Aslanlı Almaniyada yaşayan jurnalist Y.Həsənovun (Əkrəmoğlu) cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı məhkəməyə müraciət edib.

Onu da xatırladaq ki, ötən ay Almaniyanın hüquq-mühafizə orqanları Azərbaycanın müxalifət partiyasının keçmiş üzvlərini saxlayıb. Cinayətkar şəbəkəyə daxil olan 7 nəfər həbs edilib. Cinayətkar dəstənin saxlanılan üzvləri barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs qətimkan tədbiri seçilib. Onlar Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 9 və 14 saylı məntəqə tipli cəzaçəkmə müəssisələrinin sabiq rəisi Elçin Əkbərov, Müsavat partiyası Avropa Koordinasiya Mərkəzinin (Müsavat AKM) sədri, Kəlbəcər rayonunun sabiq icra başçısı İlham Həsən, Müsavat partiyasının üzvü, Müsavat AKM sədrinin müavini Mehdi Xəlilbəyli, Müsavat AKM-in üzvü Abdin Cavadov, sabiq deputat Sabir Rüstəmxanlının qardaşı, "Leqat" inteqrasiya mərkəzinin rəhbəri, sabiq polis rəisi Əlövsət Əliyev, Mehdi Xəlilbəylinin sürücüsü Rəşad Məmmədov, Müsavat partiyasının üzvü Elşən Abdullayevdir. Məlum olub ki, həbs edilənlər Almaniyada "miqrant alveri" ilə məşğul olmaqda, o cümlədən, 3-10 min avro arası ödəmə qarşılığında insanları qaçaq yollarla Almaniyaya aparmaqda şübhəli bilinirlər.

O cümlədən, saxta sənədlərlə Avropa ölkələrinə köçən digər şəxslər barədə də araşdırmalara və istintaq proseslərinə başlanılıb. İddialar var ki, Almaniyadan başqa Norveçdə, Fransada, Hollandiyada, Belçikada və s. ölkələrdə də saxta sənədlərlə mühacir statusu alaraq, yaşamağa cəhd edən "müsavatçılar" kifayət qədərdir.

**Rövşən NURƏDDİNOĞLU**

# Əli İnsanov yenə "batdı"

*Eks-nazirin gopu "HƏP"indən çoxdur*

**Sabiq səhiyyə naziri Əli İnsanovun "HƏP" ("Haqq və Ədalət") adlı siyasi təşkilatının ölü doğulması faktı, artıq özünü sübuta yetirib. Daha dəqiq desək, onun "bəh-bəhlə" bir neçə dəfə bəyanatlar verməsi, hətta Müsavat partiyasının qərargahında tamadalıq edib, Qərbə yalaqlanması, elə oradaca qaldı. Ə.İnsanov digər müxalifət partiyalarından quruca sözlərdən başqa heç bir siyasi dəstək ala bilmədi. Əksinə, Ə.İnsanovun gopu "HƏP"indən daha çox oldu.**



Daha bir məqam budur ki, cəmiyyətdə tanınmayan insanlarla "təsisçilər" adı altında foto çəkdirməklə, bunu sosial şəbəkələrdə yayan eks-nazir daha sübut etdi ki, onun ətrafındakıların hər biri xəyanətkar, korrupsioner və ümumiyyətlə, cəmiyyətə yararsız fərdlərdirlər. Bu, həm də onun və "partiyasının" perspektivsizliyini də isbatlamış oldu. O da sirr deyil ki, əgər istənilən siyasi təşkilat yaranırsa, həmin təşkilat özünü cəmiyyətə tanıtması, siyasi maraq və ideyalarını ətrafa izah etməsi üçün illər sərf etməlidir. Lakin Ə.İnsanovun buna nə sosial bazası, nə siyasi gücü, nə də yaşı imkan vermir. Bir ayağı burada, o biri ayağı gorda olanın isə, ümumiyyətlə, siyasi dividend arxasınca getməsi, sadəcə, istehza xarakteri bağışlayır. Bütün bunlar isə, faktdır və bu fakt danılmazdır ki, gopa, yalana söykənə-söykənə "HƏP", elə birdəfəlik, tez-tez dəyişən siyasi gündəmdə əriyib-bitəcək.

## AXCP və Müsavatın Əli İnsanova dəstək göstərmələri qeyri-mümkündür

Bu arada, onu da xatırlatmaq olar ki, bu gün özlərini müxalifətin "anası" kimi zorla ictimai rəyə sırımağa çalışan AXCP və Müsavat kimi partiyalar da heç vaxt istəməzlər ki, "HƏP" düşərgədəki rıçaqları əlinə keçirib, onların üzərindən adlasın. Məsələn, ömrü boyu digər müxalifət partiyalarına quyu qazan AXCP rəhbərliyi, Müsavat başqanlığının birdən-birə Ə.İnsanova dəstək göstərmələri, ümumiyyətlə, qeyri-mümkün görünür. Onun Müsavat partiyasının qərargahında tədbir keçirməsinə imkanın verilməsi isə, sadəcə, görüntü xarakteri daşıyır.

## AMİP: "Siyasi səhnədə olmayan bir partiya bizim diqqət mərkəzimizdə deyil"

Bu arada, düşərgənin digər cinahında olan müxalifət partiyaları da "HƏP"in bu və ya digər şəkildə ölkənin siyasi gündəminə təsir edə biləcək gücünün olmadığını bildirirlər. Belə ki, buna misal olaraq, AMİP-i göstərmək olar.

Sözügedən məsələ ilə bağlı mətbuata açıqlama verən partiyanın katibi Əli Orucova görə, olmayan partiya haqqında danışmaq, qeyri-ciddi səslənərdi. "Əgər söhbət sabiq səhiyyə naziri Ə.İnsanovdan gedirsə, onun da mövqeyi, seçəcəyi siyasi tərəfdaşları, təxminən, məlumdur və Müsavat partiyasının qərargahında iki dəfə toplaşıb, müzakirələr aparıblar" deyə xatırladan Ə.Orucov "HƏP"in, ümumiyyətlə, ictimai rəydə maraq doğurmadığını və diqqəti mərkəzində olmadığını bildirib: "Ona görə də, siyasi səhnədə olmayan bir partiya bizim diqqət mərkəzimizdə deyil".

Beləliklə, fakt budur ki, bir ayağı bu dünyada, digər ayağı isə, o biri dünyada olan Ə.İnsanovun "HƏP"i, həqiqətən də, goplamalardan, yalan və palanlardan, eyforiyadan başqa, bir şey deyil...

**Rövşən RƏSULOV**

# "Boykot" qərarı müxalifəti məhv edəcək

Bəlli olduğu kimi, 2020-ci il fevralın 9-da parlament seçkiləri keçiriləcək. Artıq bununla bağlı Mərkəzi Seçki Komissiyası da müvafiq hazırlıq işləri həyata keçirir. Parlament seçkilərində əksər siyasi partiyaların iştirak edəcəkləri barədə bəyanatlar və partiyaların açıqlamaları eşidilir, amma yenə də "Milli Şura" - AXCP bu prosesdən kənarda qalmağa və "boykot"a çağıran fikirlər səsləndirməyə başlayıblar. Söhbət etdiyimiz müsahiblərimizin, birmənalı mövqeləri ondan ibarət oldu ki, Əli Kərimli, Cəmil Həsənli və bu kimi şəxslər yenə də xarici maraqlı dairələrin sifarişi və göstərişi ilə hərəkət edir, onların tapşırıqlarını yerinə yetirirlər.

### Millət vəkili Tahir Rzayev: "Müxalifəti yenə də seçki uğursuzluğu gözləyir"

- Radikal müxalifət düşərgəsini təmsil edən bu şəxslərin elə istəyi parlament seçkilərinin keçirilməsi idi. Artıq bu şans onlara verilib. Gəlsinlər, bu seçkilərdə iştirak etsinlər və öz qüvvələrini qoysunlar ortaya, doğrudan da, nəyə qadir olduqlarını göstərsinlər. Ancaq müxalifət düşərgəsini təmsil edən AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli və digərləri öz imkanlarına və hörmətlərinə bəllidirlər, yəni bilirlər ki, heç kəs bunlara səs verməyəcək və bu seçkilərdə uğursuzluğa düçar olacaqlar. Çünki insanlar bu adamları təxribatçı və milli maraqlara zərbə vurmağa çalışan şəxslər kimi tanıyır, eyni qaranlıq keçmişə malik olduqlarını bilirlər. Bir sözlə, sözügedən bu şəxslər xalqdan dəstək almırlar və sözsüz ki, xalqın onlara dəstəyi yoxdur. Sadəcə olaraq, bunlar ancaq xaricdə olan havadarlarının tapşırıqlarını yerinə yetirirlər. Məqsədləri də Azərbaycan dövlətinin əldə etdiyi uğurlara kölgə salmaq, ölkədə nə isə xoşagəlməz bir vəziyyət yaratmaq və bunun sayəsində də, xarici dairələrin maliyyə dəstəyindən bəhrələnmək. Ancaq onların bu istəkləri heç vaxt həyata keçməyəcəkdir. Ümumiyyətlə, bu günə qədər müxalifət düşərgəsini təmsil edən bu şəxslər heç vaxt nə isə bir uğur qazana bilməyib və bundan sonra da qazana bilməyəcəklər. Bir sözlə, seçkilərə qatılsalar belə, onları yenə də seçki uğursuzluğu gözləyir.

### Milli QHT Forumunun prezidenti Rauf Zeyni: "AXCP-yə, seçkiləri "boykot" qərarı, xarici ağalarından verilib"

- Parlament seçkilərinə hazır olan bəzi partiyaların liderləri seçkilərə namizədliklərini irəli sürəcəklərini elan edirlər. Həmin siyasi partiyalar özlərində potensial güc hiss edirlər və inanırlar ki, seçicilər onları dəstəkləyəcək və ona görə də, namizədliklərini irəli sürürlər. Amma "Milli Şura"nın və AXCP-nin rəhbərləri olan şəxslər, çox gözəl başa düşürlər ki, onlar bu seçkilərdə səs toplaya bilməyəcəklər, qalib gələ bilməyəcəklər. Eyni zamanda, adları çəkilən bu şəxslər xarici maraqlı dairələrin sifarişi və göstərişi ilə hərəkət edir, onların tapşırıqlarını yerinə yetirirlər. Yəni bu şəxslər xarici "ağaların"dan öz göstərişlərini alıblar və bu seçkilərdə "boykot" taktikasını seçiblər. Ona görə də, əvvəlcədən bu şəxslər məğlubiyyətlərini boyunlarına alırlar və bu proseslərdə iştirak etməkdən imtina edirlər. Ümumiyyətlə, gücü, potensialı, qüvvəsi olan, bu seçkilərə hazır olan istənilən namizəd parlament seçkilərində iştirak etməlidir. Seçkiyə qatılmayanlar gücsüz və zəif partiyalardır.

### "Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz: "Küçələrdən mübarizəni yığışdır və buyur seçkilərə"

- "Milli Şura" və AXCP-nin parlament seçkilərinə qatılmaması heç nəyi dəyişməyəcək. Çünki onlar cəmiyyətdə heç bir sosial dayağa malik deyillər. Bu baxımdan, seçkilər tam şəkildə azad və demokratik şəraitdə keçiriləcək. Məsələ ondadır ki, adları çəkilən şəxslər əvvəllər yeni seçkilər tələb edirdilər. Artıq seçkilərin vaxtı müəyyən olunub, yəni 2020-ci il fevralın 9-da parlament seçkiləri keçiriləcək. Ancaq yenə bəhanə gətirirlər, müəyyən şərtlər qoyurlar, onlar tərəfindən qoyulan bu şərtlərin əsası yoxdur. Bir sözlə, adları çəkilən şəxslər mübarizəsi aparmaq istəyirlərsə, buyursunlar. Yəni küçələrdən mübarizəni yığışdır və buyur seçkilərə. Müəyyən insanlar var ki, ölkədə qarışıqlıq yaratmaq, xaos yaratmaq və bu xaosun içində bulanıq suda balıq tutmaq istəyirlər. Yəni seçkilər yolu ilə yox, qanunun tənzimlənməsi yolu ilə yox, xaosla hansısa bir məqsədə nail olmaq istəyənlər var. Bu məkrli niyyətin həyata keçirilməsi istəyində, hansısa xarici qüvvələrin göstərişi var. Bu da, təəssüfedici bir haldır. Əgər AXCP və "Milli Şura" liderləri "boykot"a çağıran fikirlər səsləndirməyə başlayıblarsa, deməli, məğlub olduqlarını qəbul ediblər.

**GÜLYANƏ**

# Əsir və girovlara qarşı erməni vandallarının xüsusi qəddarlıqları

***İşgəncələr, Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasında olan materiallar sübut edir ki, Ermənistan tərəfi əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qarşı məqsədli soyqırımı siyasəti yeridir. Yüzlərlə Azərbaycan vətəndaşı, o cümlədən, uşaq, qadın və qocalar erməni əsir və girovluğunda dözülməz işgəncələrin qurbanı olmuşdur. Çoxsaylı faktlar göstərir ki, əsir və girovlara müxtəlif dəhşətli işgəncələr verilmiş-onlar vəhşicəsinə döyülmüş, qəsdən şikəst vəziyyətinə salınmış, sinələrinə qızdırılmış xaç nişanları ilə damğa basılmış, dırnaqları və dişləri çıxarılmış, yaralarına duz basılmış, ölənə qədər rezin və dəmir dəyənəklərlə döyülmüş, damarlarına benzin yeridilmişdir. Məqalədə bu faktların bir qismi göstərilir: girov götürülərkən 3 yaşı olan Şövqi Xaqani oğlu Əliyevin (24.07.1993) bazu sümüyü Xankəndidə erməni "həkimləri" tərəfindən çıxarılmış, nəticədə, Şövqi ömürlük şikəst olmuşdur. Kəlbəcər rayonunun işğalı zamanı girov götürülən (31.03.93) Gülcamal Quliyevanın yenicə dünyaya gəlmiş oğlu Arzu Hacıyevə erməni "həkimi" Aida Serobyan naməlum tərkibli iynələr vurmuşdur.***

Nəticədə, Arzu Hacıyev ömürlük şikəst olmuşdur. Anası Afət Mirzəyevanı və babası Aslan Mirzəyevi ermənilər vəhşicəsinə güllələyərkən, Babək İlyasov cəmi yeddi aylıq imiş. Qəlpələr Babəkin sağ gözünü yaralamış, lakin buna baxmayaraq, ermənilər onu da Kəlbəcər rayonundan girov götürülmüş digər həmkəndliləri ilə birlikdə, yalnız dörd aydan sonra və həm də müalicə etmədən qaytarmışlar. Hazırda Babəkin bir gözü kordur. Ermənilər 15 yaşlı girov Nəzakət Məmmədovanın gözləri qarşısında atasına dəhşətli işgəncələr vermiş, onun qulaqlarını kəsmiş, anası hədə və şantajlara dözməyərək dəli olmuş, qızın özünü isə 4 mln rus rubluna ailəsinə satmışlar. Zəminə Göyüş qızı Dadaşova ermənilər tərəfindən girov götürülərkən, qolundan aldığı güllə yarası baxımsızlıq üzündən çirk eləmiş və onun bədənində çürümə prosesi getmişdir. Hazırda Zəminənin sol qolu işləmir. Girov götürülən zaman isə, ermənilər onun atası Göyüş Dadaşovu və yaşlı nənəsi Qönçə İbadovanı yerindəcə güllələmişlər. Erməni nəzarətçiləri Ağdam rayonundan girov götürülmüş Kəklik Həsənovaya dəhşətli işgəncələr vermiş, mismar kəlbətini ilə onun 16 dişini çıxarmışlar. Ağdam rayonunun işğalı zamanı ermənilər tərəfindən girov götürülən yaşlı qadın Şərqiyyə Rza qızı Şirinovanın 8 qızıl dişi mismar kəlbətini ilə çəkilmişdir. O, altı ay davamlı işgəncələrə məruz qalmışdır. Qubadlı rayonunun işğalı zamanı 65 yaşlı Biniş Rəsul qızı Məmmədova və 69 yaşlı Sara Miriş qızı İsmayılova girov götürülüb, Xankəndi hərbi hissəsində saxlanmışdır. Burada onları gündüz ağır fiziki əmək tələb edən işlərdə işlədir, gecələr isə xüsusi amansızlıqla döyürmüşlər. Onlarla birlikdə saxlanan Şahsənəm və Əsli adında qadınlar bu cür ağır işgəncələrə dözməyərək, girovluqda ölmüşlər. Ağdam rayonunun keçmiş sakini, milliyyətcə rus olan, erməni əsirliyində hədsiz işgəncələrə məruz qalmış Vladimir İvanoviç Şevelyov 1994-cü ildə Ağdam rayonunun işğalı zamanı 89 yaşlı anası Vera Davıdovnanın və ahıl yaşlı bacısı Svetlana İvanovnanın, eləcə də, 58 yaşlı xəstə qardaşı Anatoli İvanoviçin ermənilər tərəfindən vəhşicəsinə öldürülüb yandırıldığını, Ağdam kanalının yanında saysız-hesabsız qadın və uşaq meyiti gördüyünü bildirir. Bundan əlavə, Vladimir Şevelyov şahidlik edir ki, ermənilər Ağdam rayonunun işğalı zamanı oradakı ruhi xəstəxanada saxlanan 7 ruhi xəstəni, o cümlədən, iki xəstə qadını girov götürmüşlər. Onların biri azad edilmiş, biri döyülə-döyülə öldürülmüş, digərlərinin sonrakı taleyindən isə bu günədək məlumat yoxdur. 1930-cu il təvəllüdlü Ağdam rayon sakini Əli Rəsul oğlu Abbasov erməni girovluğunda, mütəmadi olaraq, döyülmüş və onun bədəninə siqaret basılaraq yandırılmışdır. Aldığı mənəvi və fiziki işgəncələrdən özünə gələ bilməyən Əli Abbasov erməni əsirliyindən azad ediləndən bir müddət sonra vəfat etmişdir. Erməni hərbçiləri Füzuli rayonundan girov götürdükləri Mürvət Fətiş oğlu Ağayevi döyərək qulağını kəsmiş, əllərini məftillə arxadan bağlayaraq, ağacdan asmış və ayaqlarının altında ocaq qalayaraq yandırmışlar. Hərbi əsirlər - Novruz Məhəmməd oğlu Daşdəmirov, Namiq Cavanşir oğlu Qarayev mütəmadi döyülmə, bədənlərinə qızdırılmış cisimlərlə dağ basılma və başlarına mismar çalınması nəticəsində, ruhi xəstə həddinə çatdırılmışlar. Hərbi əsir Mürşüdov Sədreddin Aslan oğlu döyüldükdən sonra şüşə qırıqlarını udmağa məcbur edilmişdir. Yaralı vəziyyətdə əsir götürülmüş Əbdüləzim Məcnun oğlu Məmmədov rezin dəyənəklə döyülmüş, damarına benzin yeridilmiş, yaralarının qaysağı qopardılaraq ona əzab verilmiş, üstünə təlim keçmiş it buraxılmışdır. Mayıl Məhəmmədəli oğlu Məmmədovun damarına dizel yanacağı yeridilmiş və sinəsi qızdırılmış xaçla damğalanmışdır. Vəhşicəsinə döyülmə nəticəsində, hərbi əsir Cavid Ağa oğlu Hüseynovun çənəsi və qabırğaları sınmışdır. Ermənilər dəmir parçası ilə Cavidin qoluna damğa basmış və yarasının üzərinə kislota tökmüşlər.

"Azərbaycanda Miqrant və Məcburi Köçkünlərin Hüquqlarının Müdafiəsi" İctimai Birliyi 2004-cü ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində rəsmi qeydiyyatdan keçərək, fəaliyyətə başlayıb. Birliyin əsas məqsədi Azərbaycan Respublikası və xarici ölkələrdə miqrant, qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi ilə əlaqədar şəraitin müntəzəm müşahidəsini təşkil etməkdən ibarətdir.

Birlik qarşısına qoyduğu məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələri həyata keçirir:

- Azərbaycan Respublikasında miqrant, qaçqın və məcburi köçkünlərin hüquqları, yaşayış şəraiti ilə əlaqədar məruzələrin hazırlanması, tərcümə edilməsi, ölkədə və ölkə hüdudlarından kənarda yayılmasının təşkili;
- ölkə daxilində və xaricdə Azərbaycandan olan miqrant, qaçqın və məcburi köçkünlərə yardım göstərilməsi ilə əlaqədar humanitar yardım kampaniyalarının təşkili;
- miqrant, qaçqın və məcburi köçkünlərə humanitar və sosial yardımların göstərilməsi;
- Azərbaycan Respublikasında yaşayan miqrant, qaçqın və məcburi köçkünlərin, eləcə də, onların ailə üzvlərinin hüquqlarının müdafiəsi;
- Azərbaycan Respublikasında miqrant, qaçqın və məcburi köçkünlərin mövcud problemlərinin ədalətli həllinə beynəlxalq ictimaiyyətin cəlb olunması;
- miqrant, qaçqın və məcburi köçkünlərin və onların ailə üzvlərinin insan hüquqlarının tanınması və nəzərə alınmasının ümumi təbliği;
- BMT-nin miqrant, qaçqın və məcburi köçkünlərlə bağlı beynəlxalq Konvensiyaların yerlərdə tətbiqinə kömək;
- mühacirlərin hüquqi və həyat standartları vəziyyətinin inkişafı tendensiyaları üzrə monitorinqi təşkil edir.

Nəzərdə tutulmuş vəzifələri həyata keçirmək üçün birlik:

- konfrans, seminar və vətəndaş fəaliyyətinin digər tədbirlərini həyata keçirir;
- ölkədə və xaricdə informasiya kampaniyaları həyata keçirir;
- informasiya bülletenlərini və digər informasiya daşıyıcılarını buraxır və onların ictimaiyyətə pulsuz yayımını təşkil edir;
- yerli və xarici mütəxəssislər cəlb edir;
- böhrandan sonrakı reinteqrasiya proqramlarında iştirak edir;
- təcrid olunmuş və daxili böhran vəziyyətində olan miqrant, qaçqın və köçkünlərə sosial-psixoloji sahədə iş apararaq, onlara mənəvi dəstək verir;
- qaçqın və köçkünlərlə əlaqədar olan təşkilatları təlimatlandırır;
- sosial və səhiyyə xidməti proqramlarının həyata keçirilməsini təmin edir;
- qanunla qadağan olunmayan digər tədbirlər həyata keçirir.

Birlik, həmçinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması məqsədilə iş aparır. Birliyin "Qolos Karabaxa", "Voice of Karabakh" qəzeti (ingilis və rus dillərində nəşr olunur) və Azərbaycan, ingilis və rus dillərində gündəlik yenilənən internet saytı Qarabağın əzəli Azərbaycan torpağı olması, onun qanunsuz olaraq, Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, milyona yaxın adamın doğma yurd-yuvasından didərgin düşməsi, həmin insanlara dəyən maddi və mənəvi ziyan, işğal olunmuş ərazilərdəki yerüstü və yeraltı sərvətlərin talan edilməsi, tarixi, maddi-mədəniyyət, memarlıq, dini abidələrin dağıdılması, yandırılması, qarət edilməsi, erməniləşdirilməsi, işğal edilmiş ərazilərin ekoloji terrora məruz qalması və s. işlə bağlı konkret faktlara, sübutlara, dəlillərə əsaslanan materialları dünya ictimaiyyətinə çatdırır.

"Azərbaycanda Miqrant və Məcburi Köçkünlərin Hüquqlarının Müdafiəsi" İctimai Birliyi olaraq biz miqrant, qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsinə lazım olan normativ-hüquqi bazanın formalaşmasına çalışırıq.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 14 dekabr


## "Azerbaijan Digital Hub" proqramı "İlin İnfrastruktur layihəsi" mükafatına layiq görülüb




Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi "AzerTelecom" şirkətinin icra etdiyi "Azerbaijan Digital Hub" proqramı Bakıda keçirilmiş "İnnovasiya Dövrü 2019" IV Beynəlxalq Forumunun (IV Mejdunarodnıy Forum "Vremə İnnovaüiy 2019") nəticələrinə əsasən "İlin İnfrastruktur layihəsi" adına layiq görülüb.

"İnnovasiya Dövrü 2019" IV Beynəlxalq Forumu çərçivəsində Bakıda innovasiya sahəsində beynəlxalq əməkdaşlığa həsr olunmuş tədbir baş tutub. Tədbir iştirakçıları olan yerli və xarici mütəxəssislər innovasiyaların müxtəlif sahələrdə tətbiqi, bu sahədə müasir trendlər barədə faydalı müzakirələr apararaq müxtəlif praktiki misallar nümayiş etdiriblər.

Tədbirdə çıxış edən AzerTelecom şirkətinin baş direktoru Fuad Allahverdiyev şirkətin icra etdiyi "Azerbaijan Digital Hub" proqramının ölkədə innovasiya mühitinin inkişafına, rəqəmsal ekosistemin formalaşmasına təsirlərindən danışıb. O proqram çərçivəsində icra edilən infrastruktur layihələri - Azərbaycan-Qazaxıstan və Azərbaycan-Türkmənistan marşrutları üzrə Xəzərin dibi ilə magistral fiber-optik kabelinin çəkilməsi və beləliklə də Avropa ilə Asiya arasında Azərbaycandan keçməklə Rəqəmsal İpək Yolunun formalaşması, növbəti mərhələdə Bakının İnternet Mübadilə Mərkəzinə çevrilməsi, iri Data mərkəzin tikintisi barədə məlumat verib, proqramın müxtəlif fazalarının icrasının ölkəmizdə innovasiyaların tətbiqinə mühüm töhfə verəcəyini qeyd edib. "Proqramın reallaşması ilə Azərbaycan hazırki enerji və nəqliyyat mərkəzləri statusu ilə yanaşı həm də regionun rəqəmsal mərkəzi olacaq. Bir müddət əvvəl AzerTelecom şirkətinin iştirakı ilə dövlət-özəl sektor tərəfdaşlığı Konsorsiumu da təsis olunub və biz Konsorsium çərçivəsində ölkəmizin rəqəmsal qovşağa çevrilməsi, Konsorsiumun rəqəmsal texnologiyaların müxtəlif sahələrdə tətbiqinə töhfə verməsi üzərində çalışırıq" - deyə Fuad Allahverdiyev bildirib.

Qeyd edək ki, beynəlxalq forum çərçivəsində həmçinin müxtəlif sahələrdə innovasiyaların tətbiqi və inkişafı üzrə ən yaxşı layihələrin IX "İnnovasiya Dövrü" mükafatı ilə təltif edilməsi mərasimi baş tutub. AzerTelecom şirkətinin "Azerbaijan Digital Hub" proqramı "İlin ən yaxşı infrastruktur layihəsi" mükafatına layiq görülüb.

## "Nar" abunəçilərinin nəzərinə!

Hörmətli abunəçilər, diqqətinizə çatdırmaq istəyirik ki, "Nar" adından istifadə edib bank kartlarından pul oğurlayan fırıldaqçı oyun saytı aşkarlanıb. İstifadəçilər müxtəlif vebsaytlardan oyun səhifəsinə yönləndilir və onlara smartfon uduşu vəd olunur. Bildiririk ki, "Nar" mobil operatorunun 3-cü tərəflərin yaratdığı bu fırıldaqçı saytla heç bir əlaqəsi yoxdur.

Mobil operator şirkətin şəffaflıq prinsipinə uyğun olaraq abunəçilərini hər zaman spam xarakterli qoşulmalardan qoruyur. Arzuolunmaz SMS göndərişləri, vebsəhifələrdən avtomatik qoşulma, səsli bələdçi xidməti ilə yönləndirmələr kimi müştəri təcrübəsinə mənfi təsir edə biləcək xidmətlərin abunəçilərə təqdim edilməməsi üçün "Nar", bu cür xidmətlər göstərən məzmun təminatçısı şirkətləri ilə əməkdaşlıq etmir.

Abunəçiləri diqqətli olub şəxsi və kart məlumatlarını paylaşmamağa və yalnız Nar-ın rəsmi veb-saytında - https://www.nar.az/və sosial şəbəkə profillərində keçirilən müsabiqələrə qatılmağa çağırırıq. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,7%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# BSU-da "Dil siyasəti və müasir dövr" mövzusunda beynəlxalq elmi konfrans keçirilib



***Dünən Bakı Slavyan Universitetinin Azərbaycanşünaslıq və slavistika bölməsinin, Müasir Azərbaycan dili və Türkologiya kafedralarının birgə təşkilatçılığı ilə "Dil siyasəti və müasir dövr" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Beynəlxalq elmi konfrans Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 1 noyabr 2018-ci il tarixli Fərmanına uyğun olaraq keçirilib.***

Beynəlxalq elmi konfransın hazırlıq işlərinin əlaqələndirilməsi və yüksək səviyyədə təşkil olunması üçün BSU-da universitetin rektoru, professor Nurlana Əliyevanın sədri olduğu 35 nəfərdən ibarət Təşkilat Komitəsi yaradılıb.

Məlumat üçün bildirək ki, konfransın Təşkilat Komitəsinə 16 xarici ölkədən, o cümlədən, Rusiya Federasiyasından, Türkiyə Respublikasından, Qazaxıstan Respublikasından, Qırğızıstan Respublikasından, Gürcüstan Respublikasından, Belarus Respublikasından, Çex Respublikasından və Rusiya Federasiyasının Kalmıkiya Respublikasından, Saxa (Yakutiya) Respublikasından, eləcə də, ölkəmizin ali təhsil müəssisələrindən elmi məqalələr daxil olub. Konfransın işçi dilləri Azərbaycan, türk, rus və ingilis dilləridir.

Konfransın plenar iclasını giriş sözü ilə açan BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov qeyd edib ki, bugünkü konfrans çox aktual bir mövzuya həsr olunub. Qloballaşan dünyamızda doğma dilimizin qorunub-saxlanması qarşımızda dayanan ən vacib vəzifələrdən biridir. Ölkəmizdə Azərbaycan dilinə böyük diqqət və qayğı göstərilir. Dövlət dil siyasətini daim diqqət mərkəzində saxlayır. Bu siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ana dilimizin saflığının qorunub-saxlanılması üçün ardıcıl səmərəli fəaliyyət göstərib. Bu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir.

Plenar iclasda çıxış edən Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin Elm sektorunun müdiri, professor Əfqan Abdullayev, BSU-nun Azərbaycanşünaslıq və slavistika bölməsinin müdiri, dosent Sadir Məmmədov, Müasir Azərbaycan dili kafedrasının müdiri, professor İkram Qasımov, Türkologiya kafedrasının müdiri, dosent Şaban Hüseynov, təhsil eksperti, professor Şahlar Əsgərov, "Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzi" İctimai Birliyinin birinci vitse-prezidenti, İctimai Nəzarət Koalisiyası İdarə Heyətinin sədri, "Sabitlik və İnkişaf Mərkəzi" İctimai Birliyinin rəhbəri Rasim Məmmədov konfransın keçirilməsini müsbət qiymətləndirərək, iştirakçılara uğurlar arzulayıblar.

Plenar iclasdan sonra konfrans öz işini 6 bölmədə - "Ulu Öndər Heydər Əliyevin dil siyasəti və multikulturalizm", "Dil və norma", "Müstəqillik əldə etmiş dövlətlərin dil siyasəti", "Dilin saflığına dövlət qayğısı", "Dilin tarixi və inkişaf perspektivləri", "Kütləvi informasiya vasitələri və ədəbi dil" adlı bölmələrdə davam etdirib. Bölmə iclaslarında, ümumilikdə, 76 məruzə dinlənilib, müzakirə olunub.

Konfransın sonunda iclas rəhbərlərinin hesabatları dinlənilib, müvafiq qərarlar qəbul olunub, iştirakçılara sertifikatlar təqdim edilib.

***ZÜMRÜD BAYRAMOVA***

## "Nar"ın müsabiqəsinə qoşul, Yeni ili Moskvada qarşıla!

Səyahətsevərlər üçün sərfəli rominq təklifləri ilə seçilən "Nar", Yeni il ərəfəsində abunəçilərinin bayram abhavasına xüsusi rəng qatmaq üçün maraqlı müsabiqə elan edib. Belə ki, mobil operatorun rəsmi "Instagram" səhifəsində 19 dekabr tarixinədək davam edəcək müsabiqədə qalib gələn istifadəçi Yeni ili Moskvada qarşılamaq imkanı əldə edəcək. Müsabiqəyə qoşulmaq üçün "Nar"ın "Instagram" səhifəsinin hekayə bölməsində paylaşılan 5 suala düzgün cavab vermək lazımdır.




Qalib bütün suallara düzgün cavab vermiş istifadəçilər arasından təsadüfi üsulla seçiləcək. Birinci yerin sahibi olan "Nar" abunəçisi dekabrın 31-dən yanvarın 6-dək davam edəcək səyahəti zamanı həm Moskvanın əsrarəngiz gözəlliyindən zövq alacaq, həm də keyfiyyətli rominq xidmətindən yararlanacaq.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600